# Fransa yeni casus şəbəkəsinin ifşasındanmı qorxur?

## *Rəsmi Parisin Azərbaycana “səyahət xəbərdarlığı” diplomatik bumeranqdır*



**Belə bir lətifə var. Günlərin birində keçmiş SSRİ-nin rəhbər şəxsləri ölkəni necə idarə etdikləri barədə fikir öyrənmək üçün Vladimir İliç Leninin ruhunu çağırmaq qərarına gəlirlər. Bunun üçün sehrbaz tapıb, “proletariatın liderinə” suallarını verirlər. Lenin cavab vermək üçün iki gün vaxt istəyir. Bir həftədən çox vaxt keçir, ancaq Vladimir İliçdən səs-soraq çıxmır.**

(ardı 4-cü səhifədə)

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 193 (30597) 6 sentyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# İtaliya Azərbaycandan Avropaya etibarlı enerji körpüsüdür



Səhifə ⇨ 2

# Xankəndi mövzusu İrəvanda siyasi alver piştaxtasına çevrilib



**Ermənistanda revanşist kəsimi təmsil edən bir sıra şəxslər və qurumlar Qarabağda yaşamış ermənilərin geri qayıtması məsələsi ətrafında spekulyasiya (hər hansı şəraitdən, kiminsə çətinliklərindən şəxsi məqsədlər və planların həyata keçirilməsi naminə istifadə edilməsi–S.H.) ilə məşğul olmaqdan əl çəkmirlər. Məsələnin spekulyasiya predmeti olması bu barədə danışanların ritorikasından aydın hiss olunur. Dedikləri cümlələrdən, danışıq tərzindən, üslübdan dərhal nəzərə çarpır ki, onları ermənilərin Qarabağa qayıdıb-qayıtmaması maraqlandırmır. Məsələnin həlli deyil, onun dalana dirənməsi onların maraqlarına daha çox uyğun gəlir.**

(ardı 5-ci səhifədə)

# Trans-Xəzər fiber-optik rabitə xətti sürətlə çəkilir



Səhifə ⇨ 7

## Qafqazda ikinci Nürnberq:

# ikili standartlar, gerçəklik və zərurət

## *Yaxud Hikmət Hacıyevin “Ermənistana qadağa” məntiqinə sözardı*

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin səsləndirdiyi fikirlər Ermənistanda isterik durum yaradıb. Daha dəqiq desək, söhbət cənab Hacıyevin Ermənistana silahlanma ilə bağlı qadağa qoyulmasına dair fikrindən gedir. Acınacaqlıdır ki, İrəvanda onun mövqeyi Bakının yeni təcavüzə başlamaq niyyəti kimi interpretasiya edilir.**



Əslində, erməni düşüncə mərkəzlərindən bu cür kəlləmayallaq yanaşmadan başqa nə isə gözləmək sadəlövhlük olardı. Əvvəla, diqqət yetirək və görək Prezidentin köməkçisi haqqında söz açdığımız fikri nə üçün dilə gətirmişdi? Tam aydındır ki, o, Ermənistanın baş naziri Nikol Paşinyanın mətbuat konfransı zamanı bildirdiklərinə münasibətini ifadə etmişdi. Nikol isə bir çox məsələlərə toxunmuşdu.

Erməni baş nazirin üzərində dayandığı ən başlıca məqam bu idi: 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdakı məsələlər Ermənistanın məğlub, Azərbaycanın qalib tərəf olması prizmasından dəyərləndirilməməlidir. Görəsən, Nikol başqa nə isə istəmir ki? Belə olan təqdirdə, H.Hacıyev niyə Ermənistanın işğalçı olduğunu bildirməməlidir?

Bir halda ki, N.Paşinyan həmin üçtərəfli bəyanatın hansı səbəbdən ərsəyə gəldiyini, 44 günlük müharibənin nə üçün baş verdiyini, savaş günlərində müxtəlif ölkələrin rəhbərlərinə yalvarışlarını xatirindən silir, onun yadına keçmişi salmaq nəinki məqbuldur, hətta vacibdir. Axı otuz ilə yaxın davam etmiş işğal unudulmamalıdır. Dünya birliyi də



işğal faktına həssas yanaşmalıdır.

Ən azı, indi cidd-cəhdlə qorunmasına çalışılan Ermənistanın gələcək mövcudluğu baxımından zamanında baş verənlər tarixin arxivinə gömülə bilməz. Ancaq əksi yaşanır. Ermənistan, sanki, süddən çıxmış ağ qaşıq kimi göstərilir, Paşinyanın danışıqlar masasına məğlub deyil, bərabərhüquqlu tərəf qismində əyləşməsinə səy göstərilir. Belə iddialar həyasızlıqdır.

Həyasızların Ermənistanı atdıqları illüziya bataqlığı isə reallıqdır. İllüziyanın təsiridir ki, bu gün Ermənistanda arsız-arsız danışanlar, H.Hacıyevin məntiqli fikrindən fərqli nəticələr çıxarmağa çalışanlar tapılır. Məqsədləri bəllidir: hay-şivən qaldırmaq və guya Bakının sülhdən yayındığına dair rəy formalaşdırmaq, Cənubi Qafqazda 44 günlük müharibədən sonra formalaşmış reallıqları təhdid etmək, erməni avantürizmini diri tutmaq.

Bəli, erməni avantürizmini qorumağa çalışanlar Ermənistanı silahlandırmaqla məşğuldurlar. Bakı və İrəvan arasında delimitasiya və demarkasiya prosesləri məsələsindəki danışıqlara münasibətini ifadə edən H.Hacıyev də bu “məşğuliyyətin” fraqmentlərindən söz açmalı idi və açdı. Üstəlik, silahlanmanın yekunda sülh prosesinə təsiri seqmentini də vurğuladı. Deməli, rəsmi İrəvan, həqiqətən, səmimidirsə, götürülmüş kursa hansısa formada zidd, yaxud zidd olduğu ehtimalı yaradan təmayüllərdən uzaq dayanmalıdır. Ancaq dayanmır və N.Paşinyan Azərbaycanı militarist siyasətdə ittiham edir. Beləliklə, öz komandasının və xaricdəki havadarlarının ölkəmizin Ermənistan üzərinə hücuma keçəcəyinə dair yaydıqları “tezislərə” leqallıq libası geyindirir.

*(ardı 4-cü səhifədə)*

# Təmiz ekoloji mühitə keçid Azərbaycanda milli hədəfdir



Səhifə ⇨ 8

# Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri

## Romada “Eni S.P.A” şirkətinin baş icraçı direktoru ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Romada İtaliyanın “Eni S.P.A” şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşüb.**

Görüşdə SOCAR ilə “Eni S.P.A” şirkəti arasında imzalanacaq sənədlərin əhəmiyyətinə toxunuldu, neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd olundu ki, sənədlərin imzalanmasından sonra “Eni S.P.A” şirkəti daha qısa müddət ərzində konkret nəticələrin əldə edilməsi üçün işçi plan və strategiya hazırlayacaq.

## Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşüb



**Sentyabrın 5-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü keçirilib.**

Romanın “Chigi” Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İtaliya nümayəndə heyətinin üzvləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloniyə təqdim olundu.



Sonra dövlətimizin başçısı İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni birgə foto çəkdirdilər.

Əvvəlcə Prezident İlham Əliyev ilə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin təkbətək görüşü oldu.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdi.

Ciorcia Meloni dövlətimizin başçısının İtaliyaya bu səfərinin çox səmərəli olduğunu vurğulayaraq, Prezident İlham Əliyevlə İtaliya–Azərbaycan ikitərəfli münasibətlərinin gündəliyində olan məsələlərə dair ətraflı müzakirələr aparıldığını qeyd etdi, iki ölkə arasında yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirildiyini bildirdi. Bu xüsusda, ölkələrimiz arasında ikitərəfli iqtisadi-ticari əlaqələrin, xüsusilə sənaye, energetika sahələrində əməkdaşlığın genişləndirilməsi, humanitar, mədəni istiqamətlərdə əlaqələrin inkişafı barədə ətraflı fikir mübadiləsi aparıldı. Humanitar-mədəni əlaqələrin inkişafında ADA Universiteti ilə İtaliya universitetləri arasında İtaliya–Azərbaycan Universiteti layihəsinin önəmi xüsusi qeyd olundu.

Enerji sahəsində ikitərəfli əməkdaşlıqdan məmnunluq ifadə edildi. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə, onun bu gün İtaliyanın və Avropa ölkələrinin enerji təhlükəsizliyində roluna toxunuldu, TAP-ın ötürücülük qabiliyyətinin artırılması barədə fikir mübadiləsi aparıldı.

İtaliya Nazirlər Şurasının sədri Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlara görə minnətdarlığını bildirdi və bu xüsusda ölkəmizin rolunu qeyd etdi. O, COP29-a dəvətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi və bu tədbirdə məmnuniyyətlə iştirak edəcəyini vurğuladı. İtaliya Nazirlər Şurasının sədri COP29-un uğurla keçirilməsi üçün ölkəsinin Azərbaycana bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu dedi. İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanın COP nümayəndə heyəti ilə yaxından əməkdaşlığı və Azərbaycanın COP Prezidentinin G20 çərçivəsində İtaliyada keçirilən ekologiya nazirlərinin toplantısında iştirakı qeyd olundu.

Söhbət zamanı İtaliyanın “Eni S.P.A” şirkəti ilə SOCAR arasında yeni əməkdaşlıq sahələrinin müəyyən olunması məmnunluqla qeyd edildi, bu şirkətlərin üçüncü ölkələrdə birgə layihələrdə iştirakı məsələsi barədə fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycanın və İtaliyanın üçüncü ölkələrdə birgə investisiya layihələrində iştirakına da toxunuldu. Orta Dəhlizin əhəmiyyəti vurğulandı və İtaliya şirkətlərinin də bu dəhlizin imkanlarından istifadə etməsi perspektivləri müzakirə olundu.

İtaliya-Azərbaycan iqtisadi əməkdaşlıq məsələləri üzrə komissiyanın roluna toxunuldu, gələn il komissiyanın iclasının keçirilməsi razılaşdırıldı.

Prezident İlham Əliyev İtaliya Nazirlər Şurasının sədrini Azərbaycana rəsmi səfərə dəvət etdi. Ciorcia Meloni dəvəti məmnunluqla qəbul etdi.

## Prezidentlər İlham Əliyevin və Sercio Mattarellanın birgə işçi naharı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 5-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub.**

Romanın “Quirinale” Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Prezidenti Sercio Mattarella dövlətimizin başçısını qarşıladı.

Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim edildi.

Sonra birgə foto çəkdirildi.

Sercio Mattarella dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə bir daha təbriklərini çatdırdı.

O, Azərbaycanla İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkəmizin İtaliyanın yaxın tərəfdaşı olduğunu deyərək, 2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin önəmini vurğuladı.

Sercio Mattarella özünün Azərbaycana səfərini məmnunluqla xatırladı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan yekdil dəstəyinin ifadəsi, eyni zamanda, ölkəmizə olan etimadın göstəricisidir. Dövlətimizin başçısı COP29 - beynəlxalq iqlim dəyişikliyi məsələlərində Azərbaycanın İtaliya ilə birgə əməkdaşlığa hazır olduğunu bildirdi.

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri, hazırda isə üzvü kimi Qlobal Cənubun bir hissəsidir, Qərb, o cümlədən Avropa ilə sıx əlaqələri mövcuddur. Dövlətimizin başçısı Azərbaycanın COP çərçivəsində də iqlim məsələləri üzrə həmrəyliyin təşviq edilməsi istiqamətində səy göstərəcəyini vurğuladı.

Prezident Sercio Mattarella ölkəsinin Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə və inkişafına daim dəstək göstərdiyini deyərək, İtaliyanın regionda sülh gündəliyini dəstəklədiyini qeyd etdi.



Son 4 ildə İtaliyaya 3 dəfə səfər etdiyini deyən dövlətimizin başçısı münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını, İtaliya–Azərbaycan əlaqələrinin özündə çoxşaxəli əməkdaşlığı ehtiva etdiyini vurğuladı, İtaliyanın Avropada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu qeyd etdi. Bu xüsusda, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın vacibliyi, o cümlədən TAP layihəsinin əhəmiyyəti vurğulandı. Bu gün TAP layihəsinin həm İtaliyanın, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı mühüm rola toxunularaq, hazırda bu layihənin Avropanın 10 ölkəsinin enerji təchizatındakı vacib rolu qeyd olundu.

Söhbət zamanı humanitar və mədəni əlaqələrin önəminə toxunuldu, ADA Universiteti ilə İtaliyanın 5 universiteti arasında birgə layihə çərçivəsində yaradılan İtaliya–Azərbaycan Universitetinin fəaliyyəti qeyd edildi. Burada təhsil alan tələbələrin gələcəkdə ölkələrimiz arasında dostluğun elçiləri olacaqlarına və münasibətlərimizin inkişafına töhfə verəcəklərinə əminlik bildirildi.

İtaliya–Azərbaycan Universitetinin yaradılmasının böyük əhəmiyyət daşıdığını deyən Sercio Mattarella bunun ölkələrimiz arasında humanitar və insanlararası əlaqələrin inkişafında mühüm rol oynadığını vurğuladı. İtaliya Prezidenti COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bunun çox əhəmiyyətli tədbir olduğunu dedi və ölkəsinin COP29-da yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirdi. İtaliyanın COP29-un Azərbaycanda uğurla keçirilməsi üçün bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu qeyd edən Sercio Mattarella COP29-la əlaqədar İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanla yaxından əməkdaşlıq etdiyini vurğuladı.

Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanla əsas ticarət tərəfdaşlarından biri olduğunu vurğuladı və Avropa İttifaqı ilə Azərbaycan arasında yaxşı əlaqələrin mövcud olduğunu dedi. Bununla belə, dövlətimizin başçısı təəssüflə qeyd etdi ki, bəzi Avropa ölkələri bu əlaqələrin inkişafına maneə yaradırlar. Regionda sülh gündəliyinə toxunan Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması təşəbbüsünün, bu müqavilənin əsasını təşkil edən prinsiplərin, eyni zamanda, Cənubi Qafqazda regional əməkdaşlıq layihələrinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu vurğuladı.

Dövlətimizin başçısı sərhədlərin delimitasiyası və demarkasiyası prosesində ciddi nailiyyətlərin əldə edildiyini, ikitərəfli xarakter daşıyan bu proses çərçivəsində artıq 12 kilometrdən çox sərhədyanı ərazinin həm də demarkasiya olunduğunu, 1990-cı illərin əvvəllərindən işğal altında olan 4 Azərbaycan kəndinin də ölkəmizin nəzarətinə qaytarıldığını bildirdi. Dövlətimizin başçısı buna baxmayaraq Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının hələ də mövcud olduğunu qeyd edərək, Ermənistanda müvafiq konstitusiya dəyişdirilməsi prosesi vasitəsilə bunun aradan qaldırılmasının önəmini vurğuladı və bundan sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün yaxşı zəmin yaranacağını bildirdi.

Görüşdə çoxsaylı İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti, xüsusilə Qarabağda bir sıra sahələrdə, o cümlədən bərpa-quruculuq işlərində, muzeylərin tikilməsində və digər müxtəlif layihələrin icrasında iştirak etdikləri vurğulandı.

Sonda Prezident İlham Əliyev İtaliya Prezidentini Azərbaycana dövlət səfərinə dəvət etdi. Sercio Mattarella dəvəti məmnunluqla qəbul etdi.

# Azərbaycan ilə İtaliya arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi





“Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının “Eni S.P.A” şirkəti arasında enerji təchizatı təhlükəsizliyi məqsədilə hasilat və midstrim sahəsində neft-qaz layihələri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və İtaliyanın “Eni S.P.A” şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə etdilər.

“Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının “Eni S.P.A” şirkəti arasında enerji keçidi və istixana qazlarının azaldılması sahəsində Anlaşma Memorandumu”nu Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və İtaliyanın “Eni S.P.A” şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə etdilər.

**Sentyabrın 5-də Romada Azərbaycan ilə İtaliya arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Nazirlər Şurasının sədri Ciorcia Meloninin iştirakı ilə mübadiləsi mərasimi olub.**

“Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının “Eni S.P.A” şirkəti arasında bioyanacaq və bioxammal sahəsində Anlaşma Memorandumu”nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və İtaliyanın “Eni S.P.A” şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə etdilər.



# Azərbaycan–İtaliya strateji əlaqələri İtaliya mediasında




**İtaliyanın əsas mətbu orqanlarından olan “Formiche” qəzetində Azərbaycan–İtaliya münasibətlərindən bəhs edən geniş məqalə yayımlanıb.**

Yazıda bu iki strateji tərəfdaş ölkənin güclü ticarət əlaqələrinə malik olduğu bildirilir, yeni geosiyasi çağırışlar fonunda münasibətlərin xüsusi çəkisinin gücləndirilməsinin əhəmiyyəti vurğulanır. Diqqətə çatdırılır ki, Asiya ilə Avropanın kəsişdiyi məkanda yerləşən Azərbaycan müxtəlifliyi təbliğ edir, fərqli mədəniyyətlərin və sivilizasiyaların dəyərlərini mənimsəyir. Bu amillər ona əsl körpü rolunu oynamağa imkan verir.

## Azərbaycanın rolu

İtaliyanı Mərkəzi Asiya ilə birləşdirən və çox mühüm coğrafi məkanda yerləşən Azərbaycan kimi əsas ölkə ilə münasibətlərdə təmsil olunan incə, lakin həlledici geosiyasi tel var: Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və Albaniya – onlar Avro-Aralıq dənizi və Qafqaz kimi iki tamamilə strateji kvadrantı təşkil edən ölkələrdir.

Materialda vurğulanır ki, İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır, rəsmi Bakı isə Cənubi Qafqaz regionunda Romanın əsas ticarət tərəfdaşıdır. İki ölkə arasında möhkəm ticarət əlaqələri yeni geosiyasi çağırışlar fonunda bu regionda potensial təsirin xüsusi çəkisi ilə güclənir. Ölkələrimiz arasında güclü əlaqələrin olduğu, üç ay əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda İtaliyanın müdafiə naziri Quido Krosetto, bu ölkənin xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli ilə görüşdüyü qeyd edilir.

Məqalədə, həmçinin ölkəmizin noyabrda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına ev sahibliyi edəcəyi vurğulanır. İtaliyanın bu beynəlxalq tədbirə xüsusi töhfəsini verəcəyi bildirilir.

## Bakı ilə Roma arasında əlaqələr

Yazıda keçən il “Ansaldo Energia” ilə “AzərEnerji” arasında imzalanan və dəyəri 160 milyon avro olan müqavilə çərçivəsində İtaliya şirkətinin Azərbaycandakı yeni elektrik stansiyasını 4 qaz turbini ilə təchiz edəcəyi diqqətə çatdırılır. Eyni zamanda, İtaliyanın “Leonardo” şirkətinin Azərbaycan Silahlı Qüvvələrinin hərbi-texniki modernləşdirilməsi proqramı çərçivəsində Azərbaycana “C-27J Spartan” tipli hərbi nəqliyyat təyyarəsi tədarük etdiyi bildirilir.

Vurğulanır ki, ikitərəfli əlaqələr nəinki müdafiə, eyni zamanda, təhsil və mədəniyyət sahələrini də əhatə edir. Bakıda yerləşən İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsində Azərbaycanın ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair sazişlər imzalanıb.

## Enerji sahəsində əməkdaşlıq

Müəllif ölkəmizin İtaliyanın enerji təchizatına verdiyi töhfədən bəhs edir, Azərbaycanın “Şahdəniz 2” yatağından hasil olunan təbii qazı “köhnə qitəyə” nəql edən Cənub Qaz Dəhlizi layihəsinin Avropa hissəsi olan TAP boru kəmərinin avropalı tərəfdaşlar üçün “təhlükəsizlik yastığı” rolunu oynadığını vurğulayır. Qeyd edir ki, indiyədək TAP-la Avropaya təxminən 26 milyard kubmetr təbii qaz nəql edilib. TANAP boru kəməri ilə Türkiyə sərhədində birləşən TAP boru kəməri Yunanıstanın şimalına, Albaniyaya, daha sonra Adriatik dənizindən keçməklə İtaliyanın Apuliya regionu sahillərinə çatır. Qaz boru kəməri texniki nöqteyi-nəzərindən obyektiv və əsaslı töhfə olmaqla yanaşı, xəttin keçdiyi bütün ölkələrin maraqlarını birləşdirən siyasi infrastrukturu təmsil edir.

## COP29 və Mədəniyyətlərarası Dialoq Forumu

Yazıda vurğulanır ki, Azərbaycanın rolu enerji ilə məhdudlaşmır – onun fəaliyyəti noyabrda növbəti COP-un təşkili və mədəniyyətlərarası dialoq kimi iki proqram xətti üzrə davam edir. Azərbaycanın mədəniyyətlərarası dialoqun təşviqinə yönəlmiş qlobal təşəbbüs kimi 2008-ci ildə mühüm beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıqla başlatdığı “Bakı Prosesi” çərçivəsində bu il ölkə paytaxtında VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Bu, hökumətlər, beynəlxalq təşkilatlar, ekspertlər, alimlər, siyasətçilər və digərləri üçün bir-biri ilə ünsiyyət kontekstində mədəniyyətlərarası kommunikasiyaların inkişaf edən dinamikası və qlobal təhlükəsizlik üzrə mənalı müzakirələr aparmaq baxımından mühüm platformadır.

# Prezident İlham Əliyev Milan şəhərinə gəlib



**Sentyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İtaliyanın paytaxtından Milan şəhərinə gəliblər.**

Milanın Malpensa hava limanında dövlətimizin başçısını və birinci xanımı İtaliyanın rəsmi şəxsləri qarşılayıblar.

*AZƏRTAC*

# Birinci vitse-prezidentin Komo gölündən paylaşımı

**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində İtaliyanın Lombardiya vilayətində yerləşən Komo gölündən paylaşım edib.**

Paylaşımda deyilir:

“Komo gölündən salamlar! 05.09.2024”, - deyə qeyd olunub.



# Mehriban Əliyevanın Paralimpiya Oyunlarında bürünc medal qazanan Vəli İsrafilova təbriki

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan paraüzgüçüsü Vəli İsrafilovun “Paris-2024” Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir:

“Azərbaycan paraüzgüçüsü Vəli İsrafilov “Paris-2024” Yay Paralimpiya Oyunlarının bürünc mükafatçısıdır! İdmançımızı təbrik edir, ona yeni qələbələr və nailiyyətlər arzulayıram!”.

Xatırladaq ki, Vəli İsrafilov SB13 kateqoriyasında 100 metr məsafəyə brass (qurbağa) üsulu ilə üzmə yarışında qüvvəsini sınayıb. O, 1:05:35 dəqiqə nəticə göstərərək fəxri kürsünün üçüncü pilləsinə qalxıb.




# Heydər Əliyev Beynəlxalq Aeroportu adından çağırışlar saxtadır




**Son günlərdə Heydər Əliyev Beynəlxalq Aeroportunun adından sosial şəbəkələrdə açılmış saxta səhifələrdə guya itmiş baqajların satışı ilə bağlı elanlar yerləşdirilir və vətəndaşların şəxsi məlumatlarının toplanmasına cəhd göstərilir.**

Bu barədə Heydər Əliyev Beynəlxalq Aeroportu və Medianın İnkişafı Agentliyi birgə məlumat yayıb. Bildirilib ki, bu tip məlumatlar tamamilə saxtadır və Heydər Əliyev Beynəlxalq Aeroportu ilə heç bir əlaqəsi yoxdur.

Məlumatda bildirilir: “Vətəndaşlarımızı diqqətli olmağa çağırır, məlumatları yalnız rəsmi mənbələrdən, o cümlədən Heydər Əliyev Beynəlxalq Aeroportunun rəsmi airport.az saytından, sosial şəbəkə hesablarından izləməyi tövsiyə edirik. Saxta material, habelə onun mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin edilməkdədir”.

*XQ*

# Fransa yeni casus şəbəkəsinin ifşasındanmı qorxur?

**(əvvəli 1-ci səhifədə)**



Nəhayət, Lenini zirzəmilərdən birində qucağında pişiyi sığallayan yerdə tapırlar. SSRİ rəhbərləri suallarını təkrarlayanda bu cavabı alırlar: Siz ölkəni elə günə qoymusunuz ki, gərək, mən "podvallardan" başlayım.

İndi Prezident Emmanuel Makronun Fransanı saldığı acınacaqlı durumu aradan qaldırmaq üçün gərək zirzəmilərdən başlanılsın. Təsəvvür edin ki, dünyada demokratiyanın, mütərəqqi fikir və ənənələrinin beşiyi sayılan məmləkət özünün böyüklüyünü unudaraq rəzil duruma düşüb. Onu da təsəvvür edin ki, Didro, Volter, Monteskyö, Taleyran, Şarl de Qoll və başqaları Fransa rəsmilərinin miskinliyini seyr edirlər. Heç şübhəsiz, hər birinin ruhu sızlayar. Onların Makrona hansı "ürək sözlərini" deyəcəklərini təxmin etmək elə də çətin deyil.

Bəli, Fransa Azərbaycana qarşı qərəz kampaniyasından əl çəkmir. Əslində, buna qərəz də demək olmur. Çünki bir çox hallarda qərəzdə həyasızlıq elementlərinə rast gəlinmir. Rəsmi Parisin etdiyi isə tam həyasızlıqdır. Söhbət Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycana səyahətdən uzaq durmağa çağıran xəbərdarlığından gedir. Guya, ölkəmizdə Fransa vətəndaşları saxlanılırmış, hədəf götürülmüşdür.

Diqqət yetirək, görək Azərbaycanda hansı fransız vətəndaşları saxlanılıb. Məlumdur ki, indiyədək yalnız Martin Rian adlı şəxs barədə bu ölçü tədbiri götürülüb. Fransa səfirliyinin iki əməkdaşı isə deport edilib. Səbəb bəllidir. Məsələ elə həmin M.Rianla bağlıdır. O Rianla ki, ötən ilin dekabrında Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub.

Bundan əlavə, digər Fransa vətəndaşı Klerk Teo Hüqonun Bakı metrosunda törətdiyi əmələ görə saxlanıldığı da məlumdur. Göründüyü kimi, ortada casusluq və terror əməli var. Yəni yaxın keçmişdə yaşananlar ölkəmizdə Fransa vətəndaşlarının saxlanılması məsələsində başqa motivin olmadığını göstərir. O zaman ölkəmizin yenə bu sayaq xoşagəlməz durumla üzləşəcəyini ehtimal etmək mümkündür. Fikrimizi əsaslandırmaq üçün bir məqamın da üzərində dayanaq.

Ötən ilin dekabrında M.Rianın saxlanılması ilə yanaşı, daha bir fakt da diqqətimizi çəkmişdi. Qərbin media orqanları uzun illər Ukrayna, Moldova, Gürcüstan, Azərbaycan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlara cəlb edilmiş Fransa xüsusi xidmət orqanlarının geniş agentura şəbəkəsinin Azərbaycanda ifşa olunduğunu yazmışdılar. Onlar hadisəni belə təsvir etmişdilər: Fransa casus şəbəkəsinin ştatdankənar əməkdaşı olmuş bir fransız könüllü olaraq Azərbaycan hüquq-mühafizə orqanları ilə əməkdaşlığa təşəbbüs göstərib. Müəyyən müddət ərzində bir qismi indi və ya əvvəllər ölkəmizdə xidmət etmiş, bəziləri müxtəlif ölkələrdə və nüfuzlu beynəlxalq təşkilatlarda örtülü işi davam etdirən onlarca Fransa xəfiyyəsi aşkarlanıb. Bununla yanaşı, xüsusi xidmət orqanlarımıza Fransa rezidenturasının Cənubi Qafqaz, Yaxın Şərq, Ukrayna və Moldovadakı fəaliyyətinə dair dəlil və sənədlər təqdim edilib. İstintaq olunan cinayət işi üzrə Ukrayna, Gürcüstan və Azərbaycanla əlaqədar kəşfiyyat fəaliyyətini həyata keçirən bir sıra şəxs həbs olunub, bəziləri isə istintaq altındadır.

Qeyd edək ki, Qərb mediası Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin bu əməliyyatını Fransa xüsusi xidmət orqanlarının son 50 ildəki ən böyük iflası və biabırçılığı adlandırmışdı. Yəni, sözümüz ondadır ki, Parisin ölkəmiz haqqında destruktiv fəaliyyətinin mənzərəsi budur və məsələ barədə yazan bizim yox, Fransanın özünün də təmsil olunduğu Qərb mediasıdır. Bildirdiklərimiz barədə ölkənin hansı tip vətəndaşlarını Azərbaycanda rahat həyatın gözləmədiyini müəyyənləşdirmək o qədər də çətinlik törətmir.

Deməli, belə qənaətə gəlirik ki, rəsmi Paris məhz özünün agentura şəbəkəsinə Azərbaycana getməmək çağırışı edir. O da mümkündür ki, Yelisey sarayında ölkənin növbəti agentura şəbəkəsinin ifşa olunacağını bildiklərindən, bu cür sərsəm açıqlama yayırlar. Yayırlar ki, tutulacaq şəxslər rəsmi Bakının "avtoritar yanaşma tərzi" kimi qiymətləndirilsin. Necə deyərlər, qara məni basınca, mən qaranı basım. Yoxsa, sıravi fransız ölkəmizdə niyə saxlanılsın ki?

Digər tərəfdən, Fransa vətəndaşlarını Azərbaycanda təhlükə gözləyirsə, o zaman bu ölkənin nüfuzlu şirkətlərinin təmsilçiləri Bakıda nə gəzirlər? Yeri gəlmişkən, Azərbaycanda 61 Fransa şirkəti var. Onların əsas fəaliyyət sahələri enerji, sənaye, nəqliyyat, kosmos, ticarət, xidmətlər və kənd təsərrüfatıdır. Ölkənin "Total" şirkəti isə Xəzərin Azərbaycan sektorunda yerləşən "Abşeron" yatağının işlənilməsi layihəsində ( SOCAR –50 faiz və "Total" –50 faiz) və Şahdəniz layihəsində (10 faiz) iştirak edir. İndi necə olacaq, bu şirkətlərin çoxsaylı işçiləri ölkəmizi tərk edəcəklər?

Bəlkə rəsmi Paris onların təhlükəsizliyi baxımından Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin bu ilin yanvarındakı çağırışına həssas yanaşsın? Yeri gəlmişkən, həmin çağırış Fransanın davamlı anti-Azərbaycan fəaliyyətinə görə ölkəmizin hökumətinə edilmiş və sənəddə Fransaya qarşı sanksiyaların tətbiqi, fransız rəsmilərin Azərbaycandakı hər hansı aktivləri aşkar edildikdə, dərhal dondurulması, iqtisadi əlaqələrin dayandırılması, "Total" da daxil olmaqla, bütün Fransa şirkətlərinin ölkəmizdən çıxarılması, həmçinin Fransa şirkətlərinin dövlətimizin sifarişi ilə həyata keçirilən layihələrdə iştirakına yol verilməməsi kimi istəklər əksini tapmışdı. Bəlkə, bu istəkləri Azərbaycan hökuməti yerinə yetirsin?

Bəli, Fransa Azərbaycanla bütün körpüləri yandırır. Halbuki rəsmi Parisin ölkəmizi birtərəfli hərəkətlərdə təqsirləndirməsinə baxmayaraq, ona qarşı addımlarımız və verdiyimiz rəsmi bəyanatlar yalnız cavab xarakteri daşıyıb. Yelisey sarayının davamlı qarayaxma kampaniyasına rəğmən, tərəfimizdən hər zaman dialoq qapıları açıq saxlanılıb. Görünür, başqa yol və yöntəm seçməyin zamanı gəlib.

Ona görə ki, Fransanın ermənipərəstliyi ənənəvi "qətnamə məntiqi"ndən çıxaraq, daha fərqli məcraya qədəm qoyub. Artıq rəsmi Paris tərəfindən Azərbaycan jurnalistlərinin Fransaya, hətta digər Şengen zonasına səyahətləri zamanı süni maneələr, əngəllər törədilir. Eyni zamanda, Fransa ərazisində mövcud azərbaycanofob mühitin nəticəsi olaraq səfirliyimizə qarşı dəfələrlə hücumların edilməsi və ali diplomatik missiyamızın binasına zərər yetirilməsi, XIX əsr görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın büstünə qarşı vandallıq aktları, bunun qarşısının alınması üçün tədbirlərin görülməməsi rəsmi Parisin ölkəmiz əleyhinə kampaniyasının tərkib hissələridir. Bütün bunlar həm də insan hüquq və azadlıqlarının pozulması təmayülüdür ki, mövcud məqamın Makron administrasiyasını qətiyyən düşündürmədiyi gün kimi aydındır.

Fransanın Avropa və Xarici İşlər Nazirliyinin xəbərdarlığındakı bir motivi vurğuladıq. Rəsmi Parisin ölkəmizdə daha bir casus şəbəkəsinin ifşası ehtimalı ilə yanaşı, qeyd edək ki, Makron administrasiyası Bakı–İrəvan sülh gündəminə də kölgə salmağı düşünür. Nazirliyin çağırışı Azərbaycanı beynəlxalq aləmin gözündən salmağa hesablanmış son dərəcə cılız hərəkətdir. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin bildirdiyi kimi, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransanın addımları sülhə xidmət etmir.

Ən başlıca məqamlardan biri isə ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi və evsahibliyidir. Şübhə yoxdur ki, Fransanın həyasızlıq dolu qərəzi məhz bu mötəbər tədbirə də hesablanıb. Ermənistan hakimiyyəti, xaricdəki ermənipərəstlər, erməni lobbi və diaspor təşkilatları kimi, rəsmi Paris də çalışır ki, COP29 Bakıya dividend qazandırmasın, əksinə mənfi çalarlarla yadda qalsın. Ancaq bütün bunların heç bir xeyri olmayacaq.

Yazımızı A.Hacızadənin Fransanın əsas xarici siyasət idarəsinin açıqlamasına cavab kontekstindəki bir fikri ilə tamamlayaq: "Azərbaycan tərəfi dəfələrlə Fransaya təhdid, təzyiq dili ilə danışmağın heç bir nəticə verməyəcəyini bildirib və öz milli maraqlarının qorunması üçün bütün zəruri tədbirlər görəcəyini bir daha bəyan edir".

***Ə.RÜSTƏMOV***
***XQ***

# Qafqazda ikinci Nürnberq: ikili standartlar, gerçəklik və zərurət

**(əvvəli 1-ci səhifədə)**



Diqqət yetirək, erməni politoloq və ekspert cameəsinin təmsilçiləri H.Hacıyevin məlum fikirləri ilə əlaqədar Azərbaycanın noyabrda keçiriləcək COP29-dan sonra Ermənistan ərazilərinin işğalına girişəcəyinə dair mülahizələr irəli sürməkdədir. Bu mülahizələr bir tərəfdən ölkəmizin beynəlxalq nüfuzuna zərbə vurmağa hesablanıbsa, digər yandan diqqəti rəsmi İrəvanın reallaşdırdığı militarizasiya siyasətindən yayındırmaq məramı var.

Əlbəttə, mülahizələrə yol açan həm də Paşinyanın danışdığı yalandır. Silahlanmanın Cənubi Qafqazda gərginliyin yaradılmasına xidmət etdiyini bildirən H.Hacıyev həmin yalana da münasibətini açıqlayır: "O (Nikol Paşinyan – red.) qeyd edir ki, Azərbaycanın ümumdaxili məhsulunun 17 faizi, guya, hərbi xərclərə sərf edilir. Bu, tamamilə yalan bir məlumatdır. Əksinə, Ermənistanın ümumdaxili məhsulunun həcminə baxsaq, görərik ki, bu dövlət tam militarizasiya xarakterli siyasət yeridir. Növbəti bir məqam da ondan ibarətdir ki, Ermənistanın baş naziri qeyd edir ki, Azərbaycan hərbi imkanlarını artırır".

Bəli, beynəlxalq birlik, heç bir halda, Bakı ilə İrəvanı eyniləşdirməməlidir. Əvvəldə də bildirdik ki, ikinciyə yanaşma fərqli olmalıdır. Özü də burada təkcə Ermənistanın ötən əsrin 80-ci illərindən başlayaraq, öz qonşusuna qarşı təcavüzkar xətt yeritməsi deyil, ümumən erməni qövmünün son iki yüz ildə bölgəni təhdid edən varlığı üzərində dayanılmalıdır. Təəssüf ki, dünyada buna diqqət yetirən yoxdur. İndi nə edək? Gözləyək ki, Ermənistan Hitler Almaniyası kimi, Avropanın hər yerinə ayaq açıb işğallar törətsin, sonra beynəlxalq aləm ona qarşı birləşsin?

Nəzərə alaq ki, Ermənistanın Azərbaycanın başına gətirdiyi faciələr, müqayisəli yanaşsaq, daha irimiqyaslıdır. Bir anlıq ölkənin ərazi və əhali baxımından Almaniya kimi təsəvvürə gətirək. Axı təsəvvürün özü belə qorxuncdur. Bunu düşünməmək, lazımi reaksiya verməmək isə həm ikili standartlar siyasətinin riyakar təzahürüdür, həm də, bütövlükdə, insanlıq adına utancdır.

H.Hacıyev məhz bu utancın bəşəriyyət üzərindən götürülməsinin vacibliyini vurğulamış və tarixə müraciət etmişdi: "İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sisteminə baxdıqda görə bilərik ki, çox az dövlət var ki, onlar məhz işğalçı, təcavüzkar olublar. Bunlardan biri də Ermənistan Respublikasıdır. Məsələn, İraq–Küveyt müharibəsindən sonra İraq silahlı qüvvələrinin inkişafında, ümumiyyətlə İraqın hərbi potensialının inkişafında müəyyən bir məhdudiyyətlər vardır. Hesab edirik ki, bu kimi məhdudiyyətlər Ermənistan silahlı qüvvələrinin üzərində də olmalıdır".

Bəli, Ermənistan üzərində nasist Almaniyasına qarşı qurulduğu kimi, Nürnberq prosesi qurulmalıdır. Qarabağ canilərinin Bakı həbsxanalarında olduqlarını nəzərə alsaq, prosesə start verildiyini deyə bilərik. Daha nə edək? Tanklarımızı İrəvan küçələrinə sürək? Bəlkə bu gün Ermənistanı silahlandırmaq yolu tutanlar, Paşinyana dəstək verənlər bunu istəyirlər? Yoxsa dünyanı boğaza yığmış erməni varlığından canlarını başqa cür qurtara bilmədikləri üçün riyakarlıq maskalarını çıxarmırlar? Bacarmırlarsa, bunu açıq desinlər, işimizi bilək.

***R.ƏVƏZ***
***XQ***

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Məzahir Pənahovun sədrliyi ilə 2024-cü il sentyabrın 5-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın avqustun 29-da keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki hüququnun mübahisələndirilməsi iddiası ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada, operativ şəkildə iclasa çıxarılan müraciətlər Komissiya üzvləri tərəfindən geniş müzakirə edilib və Seçki Məcəlləsinin tələblərinə uyğun, əsaslandırılmış qərarlar qəbul olunub.

Beynəlxalq müşahidə missiyası təmsilçiləri və media mənsublarının iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

***XQ***

**Replika**

# Söz demək haqqını itirənlərin heyrəti

**"Sülh müqaviləsinin imzalanması münaqişəni həll etmək üçündür. Məqsəd regionda sülhün və sabitliyin, gələcəkdə isə Azərbaycanla qonşuluq münasibətlərinin tənzimlənməsidir".**



Bu cür nikbin açıqlama ilə Ermənistan parlamentinin komitə sədri Sərkis Xandanyan çıxış edib. O, ilk baxışda praqmatik təsir bağışlayan bu fikirləri parlamentdə düzənlədiyi mətbuat konfransında erməni jurnalistin "Qarabağ məsələsi"nin sülh müqaviləsinə salınıb-salınmayacağı barədə təxribatçı sualı cavablandırarkən deyib. Xandanyan rəsmi İrəvanın "Qarabağ məsələsi"nə münasibətini konkret bu cür formulə edib: "Nə iddiamız var, nə də deyəcək sözümüz".

Komitə sədri media vasitəsilə erməni ictimaiyyətinin nəzərinə onu da çatdırıb ki, Ermənistanın heç bir qonşusuna qarşı ərazi iddiası yoxdur: "Sülh müqaviləsinin mətnində ərazi bütövlüyünün qarşılıqlı tanınması prinsipi təsbit olunub".

Ardınca baş nazir Nikol Paşinyanın Qarabağ ermənilərinin geri qayıtmasını real hesab etmədiyi barədə bəyanatına toxunan Xandanyan bunları bildirib: "Mən də hesab edirəm ki, bu şərtlər daxilində Qarabağ ermənilərinin geri qayıtmaları real deyil. Düşünmürəm ki, bu məsələni indiki məqamda, həm də ictimaiyyətlə müzakirə edə bilərik".

* * *

Mətbuat konfransında yaddaqalan epizodlardan biri də Sərkis Xandanyanın jurnalistin Ermənistan hakimiyyətinin ləğv edilmiş separatçı rejimi "33-cü ildönümü" ilə bağlı niyə "təbrik" etməməsi barədə avantürist sualına verdiyi qısa cavabı olub: "Bu məsələ ilə bağlı deyiləcək bir söz olsaydı, deyilərdi".

Razılaşın ki, olduqca dəqiq və məntiqi cavabdır. Doğrudan da, istər Qarabağ, istərsə də onun sərhədimizin o tayında separatçı rejimlə bağlı məsələlər özünün hüquqi həllini tapıb və buradan sözün qurtardığı məqam başlayır. Bəli, gec-tez, konkret əməl əsassız sözün meydanını bağlayır. İndi hayların Azərbaycanla sülhə gələrək qarşıdakı daha ağır aqibətdən qurtarmaq üçün ciddi düşünməli olduqları mərhələdir.

"Avropa İttifaqının ərazimizdəki mülki missiyası məsələsi Ermənistan və Aİ arasında müzakirə mövzusudur. Amma sülh müqaviləsi imzalandıqdan sonra mülki monitorinqin aparılmasına ehtiyac qalmaya bilər". Xandanyan bu fikirləri rəsmi Bakının iki ölkə arasında sərhədlərinin demarkasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında əsasnamənin imzalanmasının Aİ-nin Ermənistandakı mülki müşahidə missiyasının fəaliyyətinin dayandırılması üçün əsas olması barədə bəyanatına münasibət bildirərkən söyləyib.

"Aİ müşahidəçiləri Ermənistan ərazisində yerləşdirilib və onlar sərhədin Ermənistan tərəfinə nəzarət edirlər. Buna görə Ermənistan və Aİ müşahidəçilərin fəaliyyətinin nə vaxta qədər və hansı heyətlə davam etməsinə qərar verməlidirlər" – deyən Xandanyan növbəti praqmatik açıqlaması ilə erməni jurnalistləri təəccübləndirib. O deyib ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanandan, sərhədlərin delimitasiyası prosesi başa çatandan və bölgəyə möhkəm sülh gələndən sonra bəlkə də Aİ-nin mülki monitorinq missiyasına ehtiyac qalmayacaq.

* * *

Nəhayət, sülh sazişinin hansı platformada və kimin himayəsi ilə imzalana biləcəyi məsələsinə toxunan Ermənistan parlamentinin komitə sədri bu sualın açıq qaldığını nəzərə çatdırıb: "Ola bilər ki, saziş ikitərəfli formatda imzalansın, ola bilsin ki, üçüncü tərəfdaş ölkədə imzalansın. Bizim üçün bu variantların heç biri istisna edilmir. Sazişin imzalanması bizim üçün prioritetdir, dəyər verdiyimiz prinsipdir".

Telekameralara az-az tuş gələn Sərkis Xandanyanın maraqlı açıqlamaları Ermənistan mediasında müzakirələrə səbəb olan əsas mövzulardandır. Onun rəsmi İrəvanın Qarabağla bağlı "idialarının və sözlərinin" qurtardığını bildirməsi isə sosial şəbəkədə hirsli reaksiyalara səbəb olub. Bu, o deməkdir ki, erməni cəmiyyəti reallığın gətirdiyi və deputatlarının dilindən səslənən həqiqəti hələ də həzm etməkdə çətinlik çəkir. Amma alternativ yoxdur. Söz haqqını itirənlərin aqibəti belə olur...

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycan–İtaliya: dostluğa çevrilmiş tərəfdaşlıq

## *Ölkələrimizin qarşılıqlı-faydalı əməkdaşlığı çoxyönlüyü ilə də seçilir*

**Avropanın aparıcı dövlətlərindən biri sayılan İtaliya ilə Azərbaycanın münasibətləri bütün sahələr üzrə yüksələn xətlə inkişaf etməkdədir. Bu ölkə ilə qarşılıqlı faydalı münasibətlər Azərbaycanın xarici siyasət kursunda xüsusi yerə malikdir. Təkcə enerji daşıyıcıları ilə təminatda deyil, digər sahələrdə də ikitərəfli dostluq və əməkdaşlıq əlaqələri tarixin sınaqlarından çıxmış ənənələri ilə seçilir. Bu münasibətlər, ilk növbədə, qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır və bir-birinin dövlət və milli maraqlarına hörmət prinsiplərinə söykənir.**



Son illər iki ölkənin dövlət və hökumət başçılarının intensiv xaraker daşıyan qarşılıqlı səfərləri münasibətlərin strateji inkişafına böyük təkan verir. Ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkəmizin etibarlı tərəfdaş kimi imici formalaşıb. Azərbaycan dünyanın aparıcı dövlətləri ilə səmərəli ikitərəfli münasibətlərə və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığa üstünlük verir. Bu baxımdan bəzi dövlətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, balanslaşdırılmış praqmatik xarici siyasət kursunu yüksək dəyərləndirir, respublikamızla müxtəlif sahələri əhatə edən əməkdaşlığın daha da genişləndirilməsinə ciddi əhəmiyyət verirlər.

Yaxın tarixə nəzər salanda görürük ki, 1997-ci ilin sentyabrında Heydər Əliyevin İtaliyaya ilk rəsmi səfəri iki dövlət arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün olduqca əhəmiyyətlidir. Təsadüfi deyil ki, həmin səfər zamanı Ulu öndər İtaliya Prezidenti, Baş nazir, Senatın və Deputatlar Palatasının sədrləri ilə görüşlərində onların hamısı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllinə və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına tərəfdar olduqlarını bildiriblər. Məhz Ulu öndərin Romaya səfəri nəticəsində iki dövlət arasında siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalandı. Yəni, 27 il bundan əvvəl Azərbaycanla İtaliya arasında qarşılıqlı münasibətlər və əlaqələr yalnız yüksələn xətt üzrə inkişaf etməyə başlayıb və bugünkü yüksək səviyyəyə çatıb.

*

Tarixi təcrübə göstərir ki, ümumiyyətlə, ölkələrarası münasibətlərin səmimilik və etibarlılığında qarşılıqlı səfərlər xüsusi əhəmiyyətə malikdir. Bu mənada Azərbaycan ilə İtaliya arasında yüksək səviyyəli qarşılıqlı səfərlər münasibətlərimizin dinamikasını nümayiş etdirən əsas amillərdən biridir. İtaliya Prezidenti Sercio Mattarellanın 2018-ci ilin iyulunda Azərbaycana ilk dövlət səfəri də əlaqələrimizin inkişafında xüsusi yer tutur. Bu səfərdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri reallaşdı. Məhz həmin səfərlərdən sonra ölkələrarası qarşılıqlı münasibətlər daha intensiv və geniş xarakter almağa başladı. Dövlətimizin başçısının 2022-ci ildə İtaliyaya növbəti səfəri iki ölkə arasında əlaqələrin dinamik şəkildə inkişaf etdiyini göstərir. Həmin səfər zamanı İtaliya–Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasiminin keçirilməsi, həmçinin dövlətimizin başçısının Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirakı və çıxışı, həmçinin bu ilin iyununda İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsinin ölkəmizə təhvil verilməsi və digər faktlar iki ölkə arasında əməkdaşlıq sahələrinin geniş spektrli olmasının bariz nümunəsidir.

İtaliyanın dövlət və hökumət nümayəndələrinin, o cümlədən nazir və nazir müavinlərinin Azərbaycana mütəmadi səfərləri əməkdaşlığın məhz çoxvektorlu olmasından xəbər verir. Yəni ikitərəfli münasibətlər, sadəcə, iqtisadi-ticari paketlərlə məhdudlaşmır, mədəniyyət sahəsində də uğurla inkişaf edir. 2012-ci ildə Romanın görkəmli "Villa Borghese" parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı olub. Bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli sərəncamına əsasən ucaldılıb. Həmin sərəncama görə, Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olub. İki ölkə arasında mədəni əlaqələrdən danışarkən, Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarını xüsusi qeyd etmək lazımdır. Bu baxımdan, Vatikanda Heydər Əliyev Fondunun və şəxsən Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bəşəriyyət üçün dəyərli əsərlərin qorunması, gələcək nəsillər üçün saxlanılması istiqamətindəki səyləri yüksək qiymətləndirilir.

*

Yeri gəlmişkən, onu da qeyd edək ki, 2020-ci ildə İtaliyada "Azərbaycan mədəniyyət ili" elan edilməsi də ölkələrimiz arasında mədəni əlaqələrin yüksək səviyyəsinin daha bir göstəricisidir.

İki ölkə arasında səmimi dostluğa çevrilmiş etibarlı tərəfdaşlığın atributlarından biri də Azərbaycan Dillər Universitetində italyan dili tərcüməsi ixtisası və İtalyan Dili Mərkəzinin fəaliyyət göstərməsidir. Həmçinin təhsil sahəsində əldə olunmuş ən böyük nailiyyət Prezident İlham Əliyevin 2020-ci ilin fevral ayında İtaliyaya dövlət səfəri zamanı Bakıda İtaliya–Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılıq əldə edilməsini göstərmək mümkündür.

Bu faktı xüsusi qeyd etməyə dəyər ki, İtaliya Avropada azərbaycanlı tələbələrin ali təhsil aldığı əsas ölkələrdən biridir. 2022-ci il aprelin 2-də isə Bakıda ADA Universitetinin kampusunda İtaliya–Azərbaycan Universitetinin təməlqoyma mərasimi keçirilib. Bu universitetin ölkələrimiz arasında təhsil sahəsində əlaqələri daha da gücləndirəcəyinə əminik.

Birmənalı olaraq deyə bilərik ki, qədim tarixə malik olan Azərbaycan–İtaliya mədəni əlaqələri müstəqillik illərində daha da inkişaf edib. Bu əlaqələrin möhkəmləndirilməsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın böyük xidmətləri var. Əlbəttə, Azərbaycan–İtaliya mədəni əlaqələri sadaladığımız işlərlə yekunlaşmır. Bu əlaqələr xalqlarımızın, dövlətlərimizin bir-birinə yaxınlaşmasında da əhəmiyyətli rol oynayır.

Azərbaycan–İtaliya münasibətləri hazırda özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfərinin strateji tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrin möhkəmlənməsi üçün yeni səhifələr açacağına əminik. Artıq strateji tərəfdaşlara çevrilmiş Azərbaycan ilə İtaliya arasındakı çoxsahəli qarşılıqlı münasibətlər bundan sonra da uğurla davam edəcək və hər iki xalqın və dövlətin tərəqqisinə yeni-yeni töhfələr verəcək.

***XQ***

# Xankəndi mövzusu İrəvanda siyasi alver piştaxtasına çevrilib

**(əvvəli 1-ci səhifədə)**



Belələrindən biri də erməni xalqında azərbaycanlılara qarşı nifrətin formalaşmasına müstəsna "töhfə verən" Erməni inqilabi federasiyası – "Daşnaksütyun" partiyasıdır. Bugünlərdə qondarma "dqr" rejiminin yaranmasının 33-cü "ildönümü"nü Ermənistan paytaxtında bəh-bəhlə qeyd edənlərin başında gələn partiyanın ictimaiyyətlə əlaqələr ofisinin məsul əməkdaşı Kristine Vardanyan "Artsax" məsələsinin onlar üçün bağlı olmadığını bildirib. "Qayıdış" adlı tədbirdən bəhs edən Vardanyan deyib ki, ilk və ən vacib addım "Artsax xalqı"nın öz müqəddəratını təyinetmə (?) haqqında yenidən danışa bilməsi üçün geri qayıtması olmalıdır: "Biz uzun illər öz müqəddəratımızı təyin etmək üçün mübarizə aparan qüvvə idik, minlərlə qurbanımız oldu. İndi isə bölgənin ermənilərsiz qaldığı şəraitdə geri qayıtmaq hüququndan danışırıq. Biz çox pis vəziyyətdəyik, ona görə də ilk rasional addım ermənilərin necə geri qayıdıb yenidən orada yaşaya biləcəyini düşünmək olmalıdır. Bundan sonra öz müqəddəratını təyinetmə və digər hüquqlardan danışmalıyıq".

Onun fikrincə, ilk addım bir konsepsiya hazırlamaq olmalıdır. Çünki söhbət fərdi deyil, tamhüquqlu qayıdışdan gedir: "Söhbət beynəlxalq zəmanətlərdən və Artsaxın bu konkret bənd üzrə danışıqların gündəliyinə qaytarılmasından gedir. Biz deyirik ki, bu mövzunun danışıqların gündəliyinə salınması üçün bütün ilkin şərtlər var. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri də bu barədə danışır və bu, bizim sipərimizdir".

K.Vardanyan siyasətçi olsa da, görünür, bölgədə formalaşmış yeni siyasi reallıqlardan xəbərsizdir. Ya da girişdə qeyd etdiyimiz kimi, məsələnin həllini deyil, ucuz populist şüarlarla siyasi xal qazanmağı qarşıya məqsəd qoyub. Belə olmasaydı, o, əlləri azərbaycanlı qanına batmamış "artsaxlı" soydaşlarını Azərbaycan dövlətinin açıqladığı reinteqrasiya planına əməl etməyə, ölkəmizin vətəndaşlığını qəbul etmək şərtilə bölgəyə köçməyə çağırardı. Həm Vardanyan, həm də onun kimi düşünənlər anlamalıdırlar ki, reinteqrasiya Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində ölkəmizin Konstitusiyası, qanunları və beynəlxalq öhdəlikləri əsasında həyata keçirilə bilər.

"Artsax" məsələsinin onlar üçün bağlı olmadığına dair fikirlərə gəldikdə isə qeyd etmək lazımdır ki, bu, onların subyektiv yanaşmasıdır. Onlar hansının özləri üçün bağlı, hansının açıq olmasına özləri qərar verərlər. Bizim üçün isə Qarabağ məsələsi birdəfəlik həllini tapıb. Azərbaycan ərazisində 35 il mövcud olmuş etnik separatizm ocağı 2023-cü ildə birdəfəlik söndürülüb. İndi həmin ocağın külü ilə oynamaq istəyənlər varsa, buyursunlar. Amma bu məsələdən istifadə edərək Azərbaycana hansısa təzyiqlərin göstərilməsinə çalışmaq, bizi hansısa sanksiyalarla hədələmək mənasız işdir. Onsuz da heç nə alınmayacaq. Çünki beynəlxalq aləm illər uzunu, eləcə də 2023-cü ildə baş verən prosesləri diqqətlə müşahidə edib. Onlar özləri yaxşı bilirlər ki, Qarabağda hayların iddia etdikləri kimi hansısa etnik təmizləmə olmayıb. Bununla bağlı BMT-dəki müzakirələr zamanı Ermənistan bir fakt belə təqdim edə bilməmişdi. Ona görə də yaxşı olardı ki, erməni siyasətçi soydaşlarına Qarabağda Azərbaycan vətəndaşlığını alaraq, Konstitusiya və qanunlarımıza əməl edərək yaşamağı öyrətsin.

Onun "Artsax xalqı" məfhumundan istifadə etməsi isə ötən yazılarımızın birində qeyd etdiyimiz kimi, növbəti qaragüruhluluq və necə deyərlər, gözə kül üfürmək cəhdidir. Heç kəs üçün sirr deyil ki, "Artsax xalqı" deyilən bir xalq yoxdur və ola da bilməz. Qarabağda yaşamış ermənilərlə Ermənistanda yaşayan ermənilər arasında elə bir fərq yoxdur. Qondarma "Artsax xalqı" məfhumunu 1980-ci illərin sonlarında özlərini erməni xalqının başbilənləri hesab edənlər ortaya atmışdılar. Onlar bütün dünyanı belə bir xalqın mövcud olduğuna inandırmaq istəyirdilər. Məqsəd də bundan ibarət idi ki, Qarabağ ermənilərinin "öz müqəddəratlarını təyin etmələrinə" nail olsunlar. Yəni, bu sözün ortalığa atılmasında məqsəd separatçı əməllərə haqq qazandırmaq idi. Amma müdrik atalarımız yaxşı deyiblər: Yalan ayaq tutar, amma yeriməz. Ermənilərin "Artsax xalqı" yalanına da nəinki başqaları, heç onların özləri və xarici havadarları da inanmadılar.

Zənnimizcə, bir neçə gün öncə, daha doğrusu, avqustun 28-də Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın keçirdiyi brifinqdə erməni jurnalistin təxribatçı sualına cavab olaraq səsləndirdiyi fikirlər K.Vardanyana da ibrət olmalıdır. Qeyd edək ki, erməni jurnalist M.Zaxarovaya "Azərbaycanın Qarabağ ermənilərinə qarşı apardığı etnik təmizləmə" və ermənilərin "Artsax"a qayıtması ilə bağlı sual vermişdi.

Xanım Zaxaroav buna cavab olaraq demişdi: "Etnik təmizləməyə gəlincə, səhv etmirəmsə, siz və mən artıq Ermənistanda hörmətli sayılan beynəlxalq təşkilatların nümayəndələrinin bu məsələ ilə bağlı hansısa nəticəyə gəlib-gəlmədiyi barədə danışmışdıq. Hətta altı ay əvvəl biz bunu sizinlə müzakirə edəndə belə, siz mənə etnik təmizləmə ilə bağlı beynəlxalq təşkilatların və ya beynəlxalq təşkilatda çalışan ekspertlərin qələmindən çıxan bir qərar və ya bir qiymətləndirmə verə bilmədiniz. Əgər sizdə varsa, zəhmət olmasa mənimlə paylaşın və ya bəzi müvafiq təxminləri təqdim edin".

Rusiya XİN-in nümayəndəsi "Rəsmi Moskva ermənilərin Qarabağa qayıtmasını necə görür?" sualını da cavablandırıb: "Rusiyanın erməni əhalinin Qarabağa qayıtması məsələsinin həllini necə görməsinə dair sualınıza gəlincə, mən də əks sual vermək istərdim – Ermənistanın baş naziri Nikol Paşinyan bunu necə görür? Bunun üçün ətraflı proqram varmı? Məsələn, mən Azərbaycan tərəfinin erməni əhalinin Qarabağa qayıtması ilə bağlı planını görmüşəm. Belə bir planı Azərbaycan tərəfi təqdim edib. Əgər Ermənistanın baş naziri tərəfindən hansısa proqram hazırlansa, mən də ona baxmağa şad olar və sonra şərh verərdim".

Mövzu üzrə fikirlərini "XQ" ilə bölüşən **"Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri, politoloq İlqar Vəlizadə** deyir ki, revanşistlərin səsləndirdikləri fikirlər cəfəngiyyatdır və heç bir əsası yoxdur. Onun sözlərinə görə, burada qərar verən tərəf Azərbaycandır. Başqa heç bir qüvvə bizə təzyiq göstərə, hansısa məsələ ilə bağlı öz mövqeyini diktə edə bilməz: "Bu baxımdan kimsə, haradasa, nəsə deyirsə, onun heç bir siyasi və hüquqi əsası yoxdur. Onlar bu mövzuda açıq-aşkar spekulyasiya edirlər".



Azərbaycanın mövqeyinə gəldikdə isə İ.Vəlizadə qeyd etdi ki, bu mövqe ermənilərin Qarabağdan hələ köçmədikləri vaxtda dəfələrlə bəyan edilmişdi: "Şərtlər bəllidir və hələ xeyli müddət bundan öncə açıqlanıb. Bu da ondan ibarətdir ki, ermənilər Qarabağa Azərbaycan vətəndaşı kimi qayıda bilərlər. Ermənistanda kimsə Qarabağa qayıtmaqla bağlı məsələ qaldırırsa, bu, yalnız həmin şəxslərin ölkəmizin vətəndaşlığını qəbul etdikləri halda ola bilər. Şərtlər, daha doğrusu, Qarabağ iqtisadi rayonunun erməni əhalisinin reinteqrasiyası üzrə dövlət planı ilk dəfə 2023-cü il sentyabrın 21-də, yəni lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra Yevlaxda aparılan danışıqlar zamanı təqdim edilib. Plan oktyabrın 2-də ictimaiyyətə açıqlanıb".

Politoloq bildirdi ki, digər tərəfdən bu proses birtərəfli olmamalı, qərbi azərbaycanlıların da öz yurd-yuvalarına qayıtmaları üçün şərait yaradılmalıdır. Əgər etnik təmizləmədən söhbət gedirsə, etnik təmizləmə məhz azərbaycanlılara qarşı olub. Soydaşlarımız həm 1988-ci ildən indiki Ermənistan ərazisindəki tarixi yurd yerlərində, həm də Qarabağda müharibənin getdiyi illərdə etnik təmizləməyə məruz qalıblar. Təəssüf ki, nə beynəlxalq təşkilatlar, nə də ermənilər özləri bunu etiraf edirlər. Buna görə də əgər Ermənistan, hansısa beynəlxalq qurumlar və ya siyasi dairələr məsələnin paritet əsaslarla həllinə nail olmaq istəyirlərsə, onlar nəzərə almalıdırlar ki, azərbaycanlılar da öz yurd-yuvalarına qayıtmalıdırlar".

Müsahibimiz onu da qeyd etdi ki, burada bir məqamı da nəzərə almaq lazımdır. Məsələ ondadır ki, Qarabağda yaşamış ermənilər üçün şərtlər açıqlanıb və onlar bu şərtlərə əməl etməklə geri qayıda bilərlər. Azərbaycanlılar üçün isə heç bir şərait yaradılmır. Soydaşlarımızın qayıdışı üçün rəsmi İrəvan heç bir plan tərtib etməyib. Nə siyasi və hüquqi şərtlər, nə də təhlükəsizlik təminatı mövcuddur. Yəni, məsələnin paritet şəkildə həll olunması üçün əsaslar yoxdur.

Yeri gəlmişkən, vaxtilə Qarabağda yaşamış ermənilər Azərbaycan vətəndaşlığını qəbul edərək bölgəyə qayıtmaqla bağlı mövqelərini ortaya qoymurlar. Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar isə Ermənistan vətəndaşlığını qəbul edərək tarixi torpaqlarında yaşamağa hazır olduqlarını bildirirlər. Hər halda Qərbi Azərbaycan İcmasının açıqlaması bundan xəbər verir. Göründüyü kimi, haqq-ədalət hər zaman olduğu kimi bu dəfə bizim tərəfimizdədir. Bizim hər bir işimiz açıq və şəffafdır. Heç kəslə sövdələşməyə, yaxud pərdəarxası danışıqlara getmədən öz fikirlərimizi ortaya qoyuruq. Əgər Azərbaycanın şərtləri qəbul olunmasa, ermənilərin Qarabağa qayıtması ilə bağlı proses baş tuta bilməz.

***Səxavət HƏMİD***
***XQ***

# Vətən müharibəsinin fəlsəfəsi

**XI MƏQALƏ**

**Biz nail olduqlarımızla kifayətlənməməliyik, biz daim inkişaf etməliyik.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



## Region dəyişir

Əgər ermənilər və havadarları Azərbaycana təcavüzün başlarına bəla gətirəcəyini öncədən bilsəydilər, əminəm Qarabağa ayaq basmazdılar. Onlar son 300 ildə Cənubi Qafqazfa meydan sulayan geosiyasi güclərin ədalətsizliyinin əbədiyyən reallaşacağına çox əmin idilər. Erməni silahlı quldur dəstələri özlərini elə aparırdılar ki, sanki Azərbaycanı dövlət kimi məhv etməyə haqları və hüquqları vardır.

Bu özündənrazılıq və yalançı psixoloji eyforiya Heydər Əliyevin atəşkəsə nail olması ilə bir anda dağıldı. İlk olaraq bu, ermənilərin müəyyən qədər ağlı başında olanları və türk dövlətçiliyinin real tarixini bilənləri üçün bir işarə idi. Heydər Əliyev atəşkəsə bir neçə döyüşdə işğalçı erməniləri məğlub etməklə nail oldu. Ermənilərə və havadarlarına göstərdi ki, hərbi savaşla qalib gələ bilməzsiniz. Məncə, Vətən savaşı həmin psixoloji andan başlayır! Ermənistanın və havadarlarının hərbi təcavüzünün gerçək hərb meydanında perspektivsiz olduğunu onların siyasi cəhətdən küt və şovinist qafalarına yeridirdi.

Geosiyasi aspektdə bu məqam Cənubi Qafqazın region miqyasında geosiyasi "ruhu"nun, məqsədinin və real məqamlarının yeniləşməsi zamanının ilk ritmləri idi. Bunların fonunda Ulu öndərin "Bakı-Ceyhan marşrutu regionun geosiyasi mənzərəsini dəyişəcək" tezisi çoxlarının ağlını başına yığdı. Aydın görünürdü ki, müstəqil Azərbaycan Respublikası dövləti sistemli, əsaslı və kompleks halda Cənubi Qafqaza yeni geosiyasi, geoiqtisadi, energetik, sosial, mənəvi-mədəni və ideoloji dinamika gətirir. Bu proses özünün tam yetkin formasını, məzmununu 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün sürən Vətən savaşında təsdiq etdi. 44 gün Azərbaycan Respublikası dövləti faktiki olaraq şovinist və aqressiv siyasi qafalara "Azərbaycan" ideyasının, konseptinin, konsepsiyasının və azərbaycançılıq məfkurəsinin gücünü, ədalətli ruhunu və hüquqa əsaslanan məqsədlərini "başa saldı"! Anlatdı ki, Cənubi Qafqaz dəyişir! Bu, tarixi bir hadisədir!

## Vətən müharibəsi sülhə yol açdı

II Qarabağ müharibəsinin regiona verdiyi töhfələri hələ çox öyrənmək lazımdır. Bu, iki aspektdə gərəklidir. Birincisi, Azərbaycan dövlətçiliyinin tarixi mahiyyətinin düzgün anlaşılması üçün. İkincisi, Vətən savaşının hansı mənalarda Cənubi Qafqazı postmüharibə mərhələsinə transfer etdiyinin fəlsəfi dərki regionun taleyi baxımından arxivacibdir.

Birinci aspekt üzrə Vətən müharibəsinin əsrlərdir ki, kənar geosiyasi güclərin apardıqları anti-Azərbaycan dövlətçiliyi kampaniyasının iflas nöqtəsi olması dərk edilməlidir. Azərbaycanda real dövlətçiliyin olmadığı, ümumiyyətlə, azərbaycanlıların dövlət qura bilmədikləri ilə bağlı Qərb və Rusiya təbliğat ruporunun saxtalığı 44 gündə aydınlaşdı. Sonra isə hətta erməni tarixçilərindən bəziləri də açıq etiraf etdilər ki, Cənubi Qafqazda müstəqil dövlət quruculuğu yalnız Azərbaycanda baş tutdu.

Əslində, bu gerçəkliyin ilk etirafı keçən əsrin 90-cı illərinin ikinci yarısında ABŞ-da yaşayan erməni kökənli bir neçə tarixçidən gəlmişdi. Hətta 1997-ci ildə İrəvanda beynəlxalq konsfransda bu barədə danışan amerikalı erməni tarixçini terror etdilər, onu xalq düşməni adlandırdılar. Lakin II Qarabağ savaşı göstərdi ki, erməni tarixçi haqlıdır və əlavə olaraq hazırda rəsmi İrəvanın əsas tezislərindən biri ondan ibarətdir ki, Ermənistanda gerçəkdən müstəqil dövlət qursunlar. Bununla erməni tərəfin də etirafı ilə əsrlərdir ki, Azərbaycanla bağlı antidövlətçilik təbliğatı tamamilə çökdü.

Bu, bir tərəfdən, azərbaycançılığın ideya və məfkurə kimi güclü nəzəri-ideoloji potensiala malik olması ilə yanaşı, praktiki səmərəsinin yüksək olduğunu təsdiq edir. Digər tərəfdən isə müasir mərhələdə Ümummilli liderin müstəqil dövlət qurmaq üçün hazırladığı kursun real vəziyyətə tam cavab verdiyini göstərir.

Bunların fonunda II Qarabağ savaşı Vətən uğrunda aparılan hərəkat kimi Cənubi Qafqazda Azərbaycan Respublikasının timsalında, bütövlükdə, regiona yeni geosiyasi, siyasi, iqtisadi, energetik və mədəni dinamika gətirə biləcək dövlət olaraq bərqərar olduğunu aksiom kimi qəbul etməli oldular. Yəni bu regionda bütün mənalarda xilaskarlığın, əməkdaşlığın, təhlükəsizliyin və inkişafın ilk ünvanı Bakıdır!

Vurğulanan yeni özəlliklər avtomatik olaraq başqa maraqlı məsələni önə çəkir. Vətən savaşı bütövlükdə regionu yeni keyfiyyət mərhələsinə transfer etməkdədir. Onun adı "postmüharibə mərhələsi"dir. Bu anlayışın iki miqyasda anlamı vardır.

Birinci, səviyyə konkret olaraq Azərbaycanın apardığı Vətən savaşında hərbi əməliyyatların bitdiyinin ifadəsi ilə bağlıdır. Bu o deməkdir ki, Azərbaycan qarşısına qoyduğu milli ideyaya nail olduqdan sonra ordusu ilə kiminləsə savaşa girməyəcək. Azərbaycan dövlət kimi Vətən savaşını sona çatdırmışdır. Bu, region üçün mühüm amildir. Çünki Azərbaycan çətin və mürəkkəb müharibədən sonra Cənubi Qafqazda hansısa hərbi toqquşmalara rəvac verə biləcək təşəbbüsdə bulunmayacaq. Buradan Vətən savaşının bitməsinin Cənubi Qafqaz miqyasında mənası alınır.

İkinci, Vətən müharibəsinin sona çatması özlüyündə regionda savaşların olmasına imkan verilməyəcəyini ifadə edir. Bu anlamda II Qarabağ savaşı humanitar məqsədi ilə Cənubi Qafqazda potensial savaşları dayandırdı. Anladılar ki, hərbi toqquşma ilə nəyəsə nail ola bilməyəcəklər. Buna görə də ən yaxşısı, ümumiyyətlə, müharibə etməməkdir. İndi Ermənistanı silahlandıranlar və revanşizm xülyasına düşən erməni siyasilər və hərbçilər bu gerçəkliyi çox yaxşı bilirlər. Onlar nə qədər sözdə aqressiv kimi görünsələr də, Azərbaycan Ordusunun zərbələrini bir daha "dadmaq" xülyasına düşməzlər və buna risk etməzlər. Gerçəklik budur! Ermənistan hansısa lokal şıltaqlıq edə bilər, lakin dövlət səviyyəsində müharibə etməyə cəsarəti çatmayacaq. Çünki İrəvanı itirməkdən bərk qorxurlar.

Beləliklə, II Qarabağ müharibəsinin və Azərbaycanın müasir mərhələdə Vətən savaşı fəlsəfəsinin regional miqyasda ən böyük əhəmiyyəti savaşları dayandırmağa aqressorları inandırması olmuşdur. Bu, azərbaycançılığın regional miqyasda xilaskar, qurucu və təhlükəsizliyi təmin edən məfkurə olmasının əyani təsdiqidir! Eyni zamanda, postmüharibə mərhələsinin fəlsəfi anlamı üçün zəngin informasiya mənbəyidir.

## Postmüharibə mərhələsi

Bir hərbi savaşın, bütövlükdə, regionu müharibəsiz tarixi mərhələyə transfer etməsi, əlbəttə, tarixi olaydır. Azərbaycanın Vətən müharibəsinin regional miqyasda əsas töhfəsi regionu postmüharibə mərhələsinə keçirməsi ilə bağlıdır. Postmüharibə mərhələsi özlüyündə geniş mənaya malikdir. Burada bizi yeni mərhələnin ümumi mahiyyəti fonunda onun qurulması maraqlandırır.

Vətən savaşı regional miqyasda postmüharibə mərhələsinin təməlini hazırladı. Təməldə üç faktor aparıcı yer tutur: tarixi ədalətin təmini, regionda yaşayan hər bir xalqın milli ləyaqətinin gözlənilməsi və bütün hallarda beynəlxalq hüquq çərçivəsində fəaliyyət göstərməyin zəruriliyi. Azərbaycan qələbədən sonra atdığı addımlarla bu kriteriyaları, bütövlükdə, regiona tətbiq etməyin gərəkliyini göstərməkdədir. Onlar faktiki olaraq regionda mövcud olan hər bir dövlətin və xalqın marağına uyğundur. Onlar qalıcı sülh, əməkdaşlıq və təhlükəsizliyi təmin etmənin fundamentləridir.

Belə alınır ki, Azərbaycan sadəcə regionu yeni mərhələyə transfer etmədi, həm də onun əsas memarı oldu. Postmüharibə dövrünün yaradıcısı və qurucusu Azərbaycandır. Əlbəttə, kifayət qədər mürəkkəb vəzifədir. Lakin tarixi sifariş belədir.

## Siyasi-diplomatik mübarizənin yeni mərhələsi

Təəssüf ki, bunu gerçəklik kimi qəbul etməliyik. Vətən müharibəsinin yaratdığı yeni pozitiv ab-havanı korlamaq cəhdləri davam edir. Regionda liderlik uğrunda mübarizə aparanlar "qırmızı xətti" tanımaq istəmirlər. Onlar rəsmi İrəvanın revanşist əhval-ruhiyyəsindən yararlanmaq üçün müxtəlif üsullara əl atırlar. Bununla Cənubi Qafqazda yaranmış yeni geosiyasi mənzərə və baş verməkdə olan tarixi-geosiyasi transformasiya üçün müəyyən risklər meydana çıxmışdır. Bu bağlılıqda Azərbaycan dövlətinin fəaliyyəti bütün region üçün strateji əhəmiyyəti olan faktor kimi qəbul edilir.

Başqa məqamlarla yanaşı, bu gerçəklik azərbaycançılığın regional və multiregional miqyaslarda sınağının başlamasını əks etdirir. Öncə, qeyd edək ki, bu tarixi bir sıçrayışdır. Çünki region tarixində ilk dəfədir ki, bir dövlətin müstəqil dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ideoloji konsepti regional və multiregional miqyaslarda praktiki-feili faktor olaraq önə çıxır. Cənubi Qafqaz tarixində buna oxşar hadisə baş verməmişdir.

Eyni zamanda, bu prosesin əhəmiyyətli tərəfi ondan ibarətdir ki, regional miqyasda feili fayda verməli olan ideoloji sistem azərbaycançılıqdır. Azərbaycançılıq konkret olaraq Azərbaycanın vahid vətən və vahid müstəqil dövlət quruculuğuna aiddir və onun regional səviyyəyə adekvat proyeksiyası asan vəzifə deyildir. Xüsusilə, əsrlərdir ki, ümumiyyətlə, Azərbaycanı ciddiyə almayan kəsimlərin onun regional miqyasda aparıcı olmasını qəbul etməlidirlər.

Bunun əsas səbəbi azərbaycançılığın lokal deyil, qlobal miqyasda birləşdirici və inkişafetdirici təməl tezislərə malik olmasıdır. Azərbaycançılığın gücü buradan qaynaqlanır. O elə bir məfkurədir ki, milli inkişafı, bütövlükdə, regional inkişafın stimullaşdırıcısı istiqamətinə yönəldə bilir. Azərbaycanın azərbaycançı dövlət və cəmiyyət kimi tərəqqisi birbaşa regional miqyasda inkişafın təməlini yaradır. Burada hansısa lokal və ya məhdud milli, etnik məqam yoxdur. Onun təminatı azərbaycançılığın söykəndiyi başlıca prinsiplərdən qaynaqlanır. Azərbaycançılıq mədəniyyət, ənənə, dil və din faktorlarına əsaslanır. Onlar isə hər bir xalqa aid ola bilər və universal xarakterlidirlər. Regionun hər bir xalqının mədəniyyətini, ənənəsini, dilini və dinini inkişaf etdirməyi təşviq edir. Bu mənada azərbaycanlılıq gürcülük və ya erməniliyin mövcudluğuna nəinki təhlükə deyil, hətta onların stimullaşdırılmasına yol açır. Azərbaycanlılar kimsənin öz adət-ənənəsi və mədəniyyəti çərçivəsində inkişaf etməsinə əngəl olmurlar. Buna bizim ehtiyacımız yoxdur, çünki kifayət qədər güclü millətik! Qonşuların da güclənməsində maraqlıyıq!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməni kilsəsinin dəyişməz xisləti

## *Yaxud xristianlıqda "armenizm" xəstəliyi*

**Bütün ermənilərin katolikosu II Qareginin mövcud erməni hakimiyyətinin apardığı siyasətə qarşı olduğu sirr deyil. Sübut kimi Baqrat Qalstanyanın ötən aylarda yürüş və mitinqlərini xatırlamaq yetərlidir. Paşinyan "revanşizmin yuvası" adlandırdığı bu dini mərkəzdən gələ biləcək "təhlükələri" zərərsizləşdirmək tədbirləri görməyə çalışdı, amma göründüyü kimi, ona bəzən bu qurumdan yararlanmaq daha sərfəli variantdır.**



Erməni Qriqorian kilsəsi bütün dövrlərdə erməni irqçi düşüncəsinin lokomotivi olmaqda davam etməkdədir. II Qareginin 2 sentyabr 2024-cü il tarixli bəyanatında da Azərbaycana qarşı ərazi iddiaları açıq səsləndirilmişdir. Bundan əvvəl də dini rəhbər, guya, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə xristian abidələrini məhv etdiyini bildirmiş və Ermənistanın bəzi qurumları beynəlxalq təşkilatlara əsassız müraciətlər göndərmişdilər. Bütün dünya bilir ki, Azərbaycan tolerant dövlətdir, multikultural dəyərlərə dövlət səviyyəsində əhəmiyyət verir.

Ermənistanın rəsmi hakimiyyəti kilsənin – həm Eçmiədzin, həm də Kilikiya katolikosluğunun apardığı təxribatçı siyasətin fərqindədir. Amma bu fəaliyyət ona sərf etdiyindən səsini çıxarmır. Bu, Ermənistan hakimiyyətinin dolayısı yolla başqa bir dildən ölkəmizə qarşı aparılan gizli məramlarının üzə çıxarılmasıdır. Kilsənin konsepsiyasında "Böyük Ermənistan" ideologiyasının tərkib hissəsi kimi, Qarabağ, Naxçıvan və Ahıska (Cavaxetiya) Ermənistan ərazisi kimi keçir. Ermənistan konstitusiyasının preambula hissəsində də eyni mövqe vardır. Azərbaycana ərazi iddiası erməni kilsəsinin yeni iddiası deyil. Katolikosun sələfləri də belə bölücü iddiaları hər zaman dilə gətirmişlər. Qonşu dövlətlərə qarşı təcavüzkar əməllər dini mərkəzlərdə hazırlanaraq cəmiyyətə sirayət edib.

"Eçmiədzin" jurnalının 1956-cı il may nömrəsi diqqətimizi çəkdi. Orada qeyd edilir ki, mayın 12-də bütün ermənilərin katolikosu I Vazgen Moskvada SSRİ Nazirlər Sovetinin Sədri Nikolay Bulqaninlə görüşüb. Jurnalda gedən bu qısa qeyddən başqa heç bir məlumat verilmirdi. Az adam bilir ki, həmin görüşdən əvvəl I Vazgen Bulqaninə iki məktub göndərmiş və həmin məktublarda katolikos erməni xalqının taleyi ilə bağlı bir sıra "təkliflər" irəli sürmüşdü. Bu məktublar uzun zaman "məxfi" qrifi ilə saxlanılmışdı. İndi onların gizliliyi aradan qalxıb. Həmin məktubların surətləri hazırda Ermənistan Mərkəzi Dövlət Tarix Arxivində saxlanılır (f. 409, op. 1, d. 5787, s. 1-8).

Birinci məktubda I Vazgen Şimali Qafqaz, Orta Asiya və xüsusən də Azərbaycan və Gürcüstan ermənilərinin mənəvi həyatının və təhsilinin acınacaqlı vəziyyətini təqdim edərək, təcili həllini tələb edən tədbirlər kompleksi təklif edir. "Azərbaycan ərazisində yarım milyondan çox erməni yaşayır, lakin orada cəmi iki kilsə var - Bakıda və Kirovabadda (Gəncədə). 200 minə yaxın erməninin yaşadığı Dağlıq Qarabağ Muxtar Vilayətində rayon mərkəzində deyil, ucqar kəndlərdən birində cəmi bir kilsə var. Naxçıvan bölgəsinin erməni əhalisinin yaşadığı ərazilərdə də kilsə yoxdur", – katolikos yazır.

İkinci məktubda I Vazgen "əsasən ermənilərdən ibarət olan" Dağlıq Qarabağ Muxtar bölgəsi, Naxçıvan MSSR və Axalkalaki vilayətinin məsələlərinin "ədalətli" həlli məsələsini vurğulayır. Katolikos göstərilən əraziləri Sovet Ermənistanına birləşdirməyi təklif edir. O, öz təklifini doğma yurdlarından qovulmuş diaspor ermənilərinin tələbi, doğma torpaqlarında birgə yaşamaq istəyi ilə "əsaslandırır".

Bu gün başqa bir katolikosun – II Qareginin torpaqlarımıza iddia etməsi həmin ənənənin davamıdır və heç vaxt dəyişməyəcək bir siyasi təhdid kimi ortaya çıxmışdır. Bu onu göstərir ki, Azərbaycanın Ermənistanın konstitusiyasının preambula hissəsinin dəyişdirilməsi tələbi yerindədir. Çünki Ermənistan dövləti və ona mənsub dini və siyasi qurumlar Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyəcəklər. Əlbəttə, katolikosun belə separatçı meyilləri və "milli" fikirləri daxildə də özünə dəstəkçilər tapır.

Qarabağ separatçılarının sonuncu "lideri" Samvel Şahramanyanın katolikosa dəstək verməsi də təsadüfi deyil. O cümlədən keçmiş XİN rəhbəri Vardan Oskanyanın da fəallaşmasından Ermənistanın siyasi rəhbərliyinin xəbərinin olmaması mümkün deyil. Paşinyan bir tərəfdən dünyaya özünü sülhə can atan adam kimi göstərir, o biri tərəfdən isə guya, arası olmadığı adamların vasitəsilə erməni iddialarını yeniləyir. Dəfələrlə ifadə edilmişdir ki, ermənilər həm öz resursları, həm də beynəlxalq təşkilatların imkanlarından yararlanaraq, Qarabağa ermənilərin qaytarılması məsələsi ilə üstümüzə gələcəklər. Kilsə dini abidələri bəhanə edəcək, siyasət adamları hansısa insan hüquqlarını önə sürəcək, missiyasını tamamlamış Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Tovia Klaar kimilərinin dilindən səslənən fikirləri öz xeyirlərinə yozaraq, hansısa beynəlxalq hüquqdan danışacaqlar.

Bu gün xristian dini erməni siyasi elitasının, hakimiyyətin əlində hansısa məkrli niyyətlərini həyata keçirmək üçün bir vasitəyə çevrilib. Bütün tarixi dövrlərdə belə olub. İrqçi ideoloq Qaregin Njde vaxtilə deyirdi ki, "ermənilərin əsl dini armenizmdir". Yəni, bu, o deməkdir ki, bütün tarixi dövrlərdə mənsub olduqları dindən – xristianlıqdan erməni ideallarının gerçəkləşməsi üçün istifadə etmişlər.

Erməni tarixində və milli sivilizasiyasında armenizmin (başqa sözlə, erməniliyin) mənşəyini araşdırarkən onu erməni tarixi və mədəniyyəti, xristian ideologiyası ruhundan kənarda düşünmək olmaz. Elm və inanclar sistemi kimi ermənilik ideologiya ilə yüklüdür və özünü qoruma istiqamətindədir. Həmçinin bu ideologiya erməni millətinin dövlət anlayışı ruhunda formalaşmağa meyillidir. Ermənilərin 1918-ci ilə qədər dövləti olmadığından erməni kilsəsi dövlət funksiyalarının böyük bir bölümünü öz üzərinə götürmüşdü. Ümumən, xristianlıq birləşdirici xüsusiyyətə malik bir dindir. Amma yuxarıdakı inanc sisteminə əsaslansaq, armenizm Məsihin (ə.) İlahiliyini qəbul deyil, inkar edir. Armenizm vaazı da, əhdi-ətiq və əhdi-cədidi də inkar edir. Armenizm xristianlığı anti-milli və anti-dövlət ideologiyasını qəbul etməyən bir din hesab edir. İstəkləri reallaşmadıqda xristianlığın özünə belə üsyan bayrağı qaldırırlar. Ona görə də bəzi hallarda armenizm xristian dinindən önə keçir. Əslində, burada irqçi ideologiya öz rolunu oynayır.

Hayların xristianlıqdan öncə mənsub olduqları din – arevizm də eyni məqsədləri reallaşdırmaq üçün bir vasitə olub. Aratta dövlətinin ilahi dinə sitayiş etməsi xristianlıqdan əvvəl Armeniya coğrafiyasındakı xalqların (onlar indiki haylar deyil) mənşəyi ilə izah edilməlidir. Əslində, Günəşi tanrı hesab edənlərin sonradan xristianlığı qəbul etməsi çətin olmayıb. Xristianlıqdan əvvəl hayların dini arevizm idi. Arev – həm Grabarcada, həm də Aşxarabarda, yəni müasir ermənicədə "Günəş" deməkdir. Aydındır ki, qədim Armeniyada məskunlaşan insanların mənəvi ruhunda Günəş totemi dayanırdı. İnanca görə, Günəş məhsuldarlıq və dirçəliş mənbəyi kimi qəbul edilirdi.

**(ardı var)**

***Qafar ÇAXMAQLI,***
***"XQ"nin Türkiyə müxbiri***

# İtaliya ilə əlaqələrimiz strateji əməkdaşlıq səviyyəsindədir

## *Son 10 ildə ticarət dövriyyəsi 2 dəfə artaraq 17 milyard dollara çatıb*

**Azərbaycanla İtaliya arasında iqtisadi münasibətlər bu gün yüksək səviyyədə inkişafı ilə diqqət çəkir. Dost ölkələrin iqtisadi əlaqələri yalnız enerji deyil, digər sektorları da əhatə edir. Bunu İtaliya şirkətlərinin Azərbaycanın enerji, infrastruktur və nəqliyyat sahələrinə geniş həcmdə sərmayə yatırması da aydın göstərir.**



İtaliya–Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi Romada bu barədə jurnalistlərə məlumat verərək Azərbaycanın özəl sektor nümayəndələrinin iştirakı ilə son illərdə çox faydalı və səmərəli görüşlər keçirildiyini, ölkəmizə investisiya qoyuluşunun diqqət mərkəzində saxlanıldığını bildirib. M.Traldi daha sonra vurğulayıb: "Azərbaycanı İtaliyada tanıtmağa çalışır, investisiya cəlb etməyə kömək məqsədilə bütün elementlərdən istifadə edirik. Biz ümidlərimizi Trans-Adriatik Boru Kəməri (TAP) layihəsinə bağlayaraq, hələ 2012-ci ildə İtaliya–Azərbaycan Ticarət Palatasını yaratdıq. Şəxsən əmin idim ki, TAP nə vaxtsa reallaşacaq və ölkələrimiz daha da yaxınlaşacaq".

Ticarət Palatasının prezidenti Azərbaycanın investisiya şirkətləri, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi və İqtisadiyyat Nazirliyi ilə sıx əməkdaşlıq edildiyini, perspektivlərin isə çox böyük olduğunu, Azərbaycanda biznes və istehsal mühitinə ən qabaqcıl İtaliya texnologiyalarını gətirəcək birgə müəssisələrin yaradılacağını, eləcə də bunun iqtisadiyyatın daha da inkişafına və şaxələndirilməsinə töhfə verəcəyini də vurğulayıb. M.Traldi, həmçinin birgə müəssisələr yaradılarkən sənaye sektoruna, o cümlədən, neft-kimyaya, eləcə də Azərbaycanın metallurgiya istehsalına və kənd təsərrüfatına üstünlük veriləcəyini bildirib.

"Azərbaycanda kənd təsərrüfatının gələcək inkişafına dəstək verəcək bir neçə layihəmiz var. Bundan əlavə, biz səhiyyə, sənaye, eyni zamanda İtaliyanın innovasiyaya malik olduğu digər sahələrdə, məsələn, dəri emalı, ayaqqabı istehsalı və toxuculuq kimi sektorlardan yeni layihələr hazırlayırıq", – deyə o bildirib.

Ticarət Palatası prezidentinin sözlərinə görə, ötən illər ərzində Azərbaycan və İtaliya arasında ticarət dövriyyəsi dəyişib. Belə ki, 2013-cü ildə Azərbaycan və İtaliya arasında ticarət dövriyyəsi 8 milyard dollar təşkil edirdisə, 2017-ci ildə bu göstərici 17 milyard dollara çatıb. Bu, əsasən, Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Azərbaycandan İtaliyaya qaz tədarükü hesabına baş verib.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdik. Prezident İlham Əliyev Vətən müharibəsi dövründə Azərbaycana dəstək verən dost ölkələrin işğaldan azad edilən ərazilərdə bərpa və yenidənqurma işlərinə cəlb olunacaqlarını dəfələrlə bildirib. Elə buna görə də ilk müqavilələr qardaş Türkiyə ilə yanaşı, İtaliya şirkətləri ilə imzalanıb.

Artıq İtaliya şirkətləri tərəfindən işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri səmərəliliyi və keyfiyyətinə görə diqqət çəkir. Respublikamızın üç şəhərində İşğal və Zəfər muzeylərinin inşa olunması, Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası, elektrik enerjisi sektorunda layihələrin uğurla reallaşdırılması da bunun bariz ifadəsidir.

Onu da deyək ki, Vətən müharibəsindən bir müddət sonra dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Bununla da Qarabağda həyata keçiriləcək layihələrə Türkiyədən sonra başqa bir nüfuzlu dövlət – İtaliya şirkətləri də qoşulub.

"Azərenerji" ilə "Ansaldo Energia" rəhbərlərinin İtaliyanın Azərbaycandakı səfirinin iştirakı ilə imzalanan müqaviləyə görə, Agdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunan dörd 110 kV-luq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz "Ansaldo Energia" şirkəti həyata keçirib.

Zəngin bərpaolunan enerji ehtiyatlarına malik ölkəmizin "yaşıl artım" və davamlı inkişaf məkanına çevrilməsi məqsədilə görülən işlərdə də İtaliya şirkətləri fərqlənirlər. "Azərbaycan İnvestisiya Şirkəti" ASC və bu ölkənin "Technip Energies Italy S.p.A" şirkəti arasında əməkdaşlıq haqqında saziş imzalanması da bunun bariz ifadəsidir. Əməkdaşlıq çərçivəsində "Tullantıların monetizasiyası" layihəsi ilə termokimyəvi təkrar emal texnologiyası əsasında plastiklə zəngin olan məişət tullantılarından "yaşıl" qazın alınması nəzərdə tutulub.

İtaliya şirkətləri ötən illər ərzində ölkəmizin qeyri-neft sənayesinin inkişafına da mühüm töhfələr verib. Sumqayıt Kimya Sənaye Parkının rezidentləri sırasında yer alan dost ölkənin "Az-Tex-Import" şirkəti qabaqcıl texnologiyalarının tətbiqi ilə tezliklə "IVECO" markalı yük avtomobillərinin istehsalı müəssisəsində avadanlıqların quraşdırılmasına başlayacaq. İl ərzində 100 ədəd avtomobilin istehsal olunacağı zavodun məhsulları daxili bazarda satılmaqla yanaşı, Rusiya, Gürcüstan, Türkmənistan və İrana ixrac ediləcək.

"Az-Tex-Import" 2022-ci ilin mayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Layihə üzrə indiyədək görülən işlərə 6 milyon manatdan çox sərmayə qoyulub. İnvestisiya dəyəri 19,2 milyon manat olan müəssisədə 90 nəfərin daimi işlə təmin ediləcəyi planlaşdırılıb.

Qeyd edək ki, "Az-Tex-Import" MMC "IVECO" brendinin Azərbaycanda rəsmi təmsilçisidir və iki il bundan öncə Sumqayıt Kimya Sənaye Parkının rezidenti olmaq və parkda bu brendlə 18 tona qədər yükgötürmə qabiliyyəti olan avtomobillərin istehsalı qərarını verib.

Ötən illər arasında Azərbaycanın əsas ticarət tərəfdaşları arasında İtaliya xüsusi yer tutub. Belə ki, keçən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 15 milyard 685 milyon ABŞ dolları təşkil edib. Hesabat dövründə Azərbaycandan İtaliyaya 15 milyard 208 milyon dollar dəyərində məhsul göndərilib. İtaliyadan isə respublikamıza 477 milyon 903 min dollar dəyərində məhsul idxal edilib.

Ölkələrimiz arasında qarşılıqlı ticarət əməliyyatları 2024-cü ilin əvvəlindən də davam etdirilib. Belə ki, cari ilin yanvar–may aylarında Azərbaycanla İtaliya arasında ticarət əməliyyatlarının həcmi 4 milyard 409 milyon 619 min ABŞ dolları təşkil edib ki, bu da ölkəmizin ümumi ticarət dövriyyəsinin 23,91 faizi həcmində olub. Hesabat dövründə Azərbaycan İtaliyaya 4 milyard 228 milyon 930 min ABŞ dolları dəyərində məhsul ixrac edib. Bu isə Azərbaycanın ümumi məhsul ixracının 37,97 faizi deməkdir. Eyni zamanda, yanvar–may aylarında ölkəmiz İtaliyadan 180 milyon 689 min ABŞ dolları həcmində müxtəlif məhsullar idxal edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1,3 faiz çoxdur.

İtaliyanın da Cənubi Qafqaz ölkələri arasında əsas ticarət tərəfdaşı Azərbaycandır. Bu ölkənin Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin 85 faizini Azərbaycan ilə ticarət təşkil edir. 2023-cü ildə İtaliya Respublikasının Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 30,65 faiz (1-ci yer), o cümlədən idxalda 2,76 faiz (7-ci yer), ixracda isə 44,86 faiz (1-ci yer) təşkil edib.

2024-cü ilin yanvar–iyul aylarında isə ticarət dövriyyəsinin həcmi 6,2 milyard ABŞ dolları, o cümlədən idxalın həcmi 0,3 milyard ABŞ dolları, ixracın həcmi 5,9 milyard ABŞ dolları təşkil edib.

# Trans-Xəzər fiber-optik rabitə xətti sürətlə çəkilir

## *330 kilometrlik kanal 50,6 milyon dollara başa gələcək*

**Gələn il Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsinin başa çatdırılacağı nəzərdə tutulub. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin xalqa müraciətində bu barədə ətraflı bəhs edilib. Müraciətdə beynəlxalq dəhlizlərə və transsərhəd məlumat axınlarına qoşulacaq rəqəmsal infrastrukturun yaradılmasının Qazaxıstanın inkişafı üçün mühüm önəm daşıdığı vurğulanıb.**



Qazaxıstan Prezidentinin müraciətində, eyni zamanda telekommunikasiya şəbəkələrinin, məlumat mərkəzlərinin fəal inkişafının davam etdirilməsinin, qlobal kibertəhlükəsizlik standartlarının tətbiqinin, mütəxəssislərin səriştəsinin artırılmasının zəruriliyi də diqqətə çatdırılıb.

Trans-Xəzər fiber-optik rabitə xətti layihəsi sentyabrın 3-də Qazaxıstanın paytaxtı Astanada keçirilən inklüzivlik və transformasiya üzrə Asiya-Sakit Okean nazirlər konfransı zamanı da diqqət mərkəzində olub. Bu ölkənin Baş naziri Oljas Bektenov hazırda Trans-Rəqəmsal İpək Yolunun inkişafı çərçivəsində qonşu ölkələrlə birgə Xəzər dənizinin dibi ilə Körfəz ölkələrinə çıxışı olan fiber-optik kommunikasiya xətlərinin çəkilməsi layihəsinin həyata keçirildiyini xatırladaraq deyib ki, inteqrasiya yeni texnologiyaların inkişafı, "Big Tech" şirkətlərinin cəlb edilməsi üçün məlumatların toplanması, saxlanması və emalı üçün müasir infrastruktur formalaşdırmağa, həmçinin Qazaxıstanın IT həllərinin dünya bazarına çıxarılmasını təmin etməyə imkan verəcək.

Bu prosesdə "Astana Hub" beynəlxalq texnoloji parkının əsas rolu oynadığını vurğulayan hökumət başçısı onun platformasında 1400 rezident, o cümlədən 400 xarici şirkət üçün əlverişli investisiya mühiti yaradıldığını diqqətə çatdırıb. Baş nazir, həmçinin ölkəsinin rəqəmsallaşma sahəsində əməkdaşlığın genişləndirilməsinə və bu istiqamətdə təcrübə mübadiləsinə hazır olduğunu vurğulayıb.

Xatırladaq ki, Transxəzər fiber-optik kabel xətti layihəsi 2018-ci ildə Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan AzerTelecom şirkəti tərəfindən irəli sürülüb. Ölkəmizin regional rəqəmsal mərkəzinə çevrilməsi məqsədilə "Azerbaijan Digital Hub" proqramı çərçivəsində həyata keçirilən layihə Azərbaycan–Qazaxıstan və Azərbaycan–Türkmənistan marşrutlarından ibarətdir. Transxəzər fiber-optik kabel xətti layihəsi Azərbaycan və Orta Asiya ölkələri arasında məlumatların Xəzər dənizinin dibi ilə daha yüksək səviyyədə ötürülməsini təmin etmək məqsədi daşıyır. Eyni zamanda, layihənin reallaşması iri həcmli məlumatların ötürülməsinə imkan verən magistral kabel xətlərinin çəkilməsi ilə Avropa və Asiya arasında Azərbaycan vasitəsilə Rəqəmsal İpək Yolunu (Digital Silk Way) formalaşdırmağa imkan yaradacaq.

2019-cu il martin 19-da layihənin ilk hissəsi olan Azərbaycan–Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə magistral fiber-optik kabel xəttinin çəkilməsi ilə bağlı Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dövlətlərarası saziş imzalanıb. Həmin il noyabrın 19-da isə Qazaxıstanın Aktau şəhərində iki ölkə arasında Xəzər dənizinin dibi ilə Transxəzər fiber optik kabel xəttinin çəkilişi üzrə Qazaxıstan ərazisində işlərə başlanmasına dair təntənəli mərasim keçirilib.

2023-cü ildə telekommunikasiya operatorları olan "AzerTelecom" və "Kazaxtelecom" arasında Azərbaycan–Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə Trans-Xəzər fiber-optik rabitə xəttinin tikintisi və istismarı üzrə birgə müəssisənin yaradılması haqqında sazişin imzalanması ilə işlər xeyli sürətlənib. Sualtı xəttin əsas marşrutu Qazaxıstanın Aktau limanından Azərbaycanın Siyəzən şəhərinə qədər uzanacaq və onun uzunluğu 400 kilometrə yaxın olacaq. Bununla yanaşı, Qazaxıstanın Kurık limanından Bakının yaxınlığındakı Buzovna kəndinə uzunluğu, təxminən, 330 kilometr olan ehtiyat kanal çəkiləcək.

Kabel xəttinin məlumat ötürmə gücü ən azı 4-6 terabit\s təşkil edəcək. Layihə Azərbaycan tərəfdən AzerTelecom, Qazaxıstan tərəfdən isə Transtelecom və KazTransCom telekommunikasiya operatorları tərəfindən icra ediləcək. Kabel xətti Avropa qitəsindən internet və kontentin Azərbaycan vasitəsilə Qazaxıstana, daha sonra isə Çinə daşınmasına imkan verəcək. Qazaxıstan və Azərbaycanın rabitə operatorlarının investisiyaları isə, təqribən, 50,6 milyon ABŞ dolları təşkil edəcək.

Trans-Xəzər fiber-optik rabitə xətti layihəsinin Azərbaycan–Türkmənistan marşrutunun çəkilməsi ilə bağlı hüquqi sənəd – dövlətlərarası saziş isə 2019-cu il noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilmiş "Türkməntel 2019" 12-ci beynəlxalq telekom və IT sənayesi sərgisi çərçivəsində imzalanıb. Sazişə əsasən, Xəzər dənizinin dibi ilə kabel xəttinin çəkilişi Azərbaycan tərəfdən magistral internet provayderi AzerTelecom şirkəti, Türkmənistan tərəfdən isə bu ölkənin telekommunikasiya operatoru Türkmentelekom tərəfdən reallaşdırılacaq. Kabel xətti Siyəzən və Türkmənbaşı coğrafi məkanları arasında çəkiləcək. Kabel xətti Avropa internet mərkəzlərindən internet trafikinin Azərbaycan vasitəsilə Türkmənistana, daha sonra isə Özbəkistan, Əfqanıstan, Pakistan və Hindistana ötürülməsinə imkan verəcək, Avropa ilə Cənubi Asiya arasında internet trafikinin ötürülməsində Azərbaycanı mərkəzi ölkəyə çevirəcək.

Transxəzər fiber-optik kabel xətti Azərbaycan vasitəsilə Avropa ilə Asiya arsında rəqəmsal telekommunikasiya dəhlizinin, başqa sözlə, tarixi İpək yolu üzərində artıq yeni rəqəmsal ipək yolunun formalaşmasına və Asiya ölkələrinin Azərbaycan vasitəsilə data trafiki və kontenti əldə etməsinə imkan verəcək. Layihənin reallaşması Azərbaycanı Asiya və Avropa arasında regional rəqəmsal mərkəzə çevirəcək. Təsadüfi deyil ki, Prezident İlham Əliyev "Rəqəmsal İpək yolu" layihəsinin önəmini qeyd edərək fiber-optik infrastrukturun yaradılmasını ölkələrimiz arasında əməkdaşlığın yeni sahəsi kimi yüksək dəyərləndirib və Azərbaycanın bu təşəbbüsü xüsusi diqqət mərkəzində saxladığını bildirib.

Sözügedən layihəyə beynəlxalq maraq da olduqca yüksəkdir. Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə məlumat mübadiləsi ehtiyaclarını ödəyəcək regional əhəmiyyətli strateji əhəmiyyətli bu layihə ABŞ-də keçirilmiş "Qlobal srateji infrastruktur liderlik forumu"nda Asiyada beş ən yaxşı strateji infrastruktur layihəsindən biri seçilib. Bununla yanaşı, "2022–2026-cı illər üzrə Türk Dövlətləri Təşkilatı Strategiyası"nda Trans-Xəzər fiber-optik kabel xəttinin icrasının sürətləndirilməsi, Avropa ilə Asiya arasında yüksək ötürmə gücünə sahib olacaq fiber-optik internet xəttinin qurulması prioritet vəzifə kimi göstərilib.

# Ölkəmizdə Özbəkistanla birgə avtomobil buraxılacaq

**Azərbaycanın "Azərmaş" şirkəti və Özbəkistan hökuməti arasında "Cobalt" avtomobillərinin CKD (Complete Knock Down) texnologiyası ilə yığılmasının təşkili ilə bağlı layihə üzərində iş gedir. Layihə çərçivəsində il ərzində 15 min avtomobilin istehsalı nəzərdə tutulur. İstehsal prosesinə isə 2025-ci ildə başlanması planlaşdırılır. Özbəkistanla əməkdaşlıq çərçivəsində Hacıqabul Sənaye Parkında "Tracker" və "Onix" modellərinin istehsalı da davam etdirilir.**

Əlavə edək ki, bu il avqustun 22-də Daşkənddə keçirilmiş Özbəkistan–Azərbaycan biznes-forumunun gedişində 2 milyard ABŞ dolları dəyərində layihələr portfeli təsdiqlənib. Bundan bir gün sonra isə Prezident İlham Əliyevin Daşkəndə səfəri çərçivəsində dövlət başçılarının iştirakı ilə iki ölkənin işgüzar adamları arasında keçirilmiş görüşün yekunlarına əsasən, ümumi dəyəri 520 milyon dollar olan 7 layihə hazırlanıb.

Xatırladaq ki, Özbəkistanda il ərzində 500 mindən çox avtomobil istehsal olunur. Ölkənin iri istehsalçıları arasında "UzAuto Motors", "MAN Auto Uzbekistan", "SamAuto", "ADM Jizzakh" kimi şirkətlər var. Eyni zamanda, burada "BYD" markalı



elektrikli avtomobillərin istehsalı da həyata keçirilir. Azərbaycanın Gəncə və Naxçıvan şəhərlərində isə "Azərmaş" və "AzSamand" kommersiya və yük avtomobilləri istehsal edən iri maşınqayırma müəssisələri fəaliyyət göstərir.

# "İstisu" yarımstansiyası qəsəbənin bərpasına xidmət edəcək

**"İstisu" yarımstansiyası əhəmiyyətli dövlət obyektlərini və eyni adlı sanatoriyanı elektrik enerjisi ilə təmin edəcək. Bunu jurnalistlərə açıqlamasında "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Qarabağ regionunun istismar üzrə rəis müavini Rəşad İbrahimov deyib.**



Onun sözlərinə görə, Kəlbəcər rayonunda olan 110/35 kilovoltluq "İstisu" yarımstansiyası dövlət əhəmiyyətli obyektlərin və yaxınlıqdakı yenidən qurulan "İstisu" sanatoriyasını elektrik enerjisi ilə təmin edilməsində mühüm rol oynayacaq. Bu qurğu Laçın rayonundakı 110 kilovoltluq yarımstansiya ilə dövrəli xətlərin birləşməsində üstünlük təşkil edəcək.

Qeyd edək ki, "İstisu" yarımstansiyası bölgənin ən yüksək ərazisində yerləşir və buraya 22 kilometr uzunluğunda ikidövrəli 110 kilovoltluq xətt çəkilib.

# Cəlilabad çiyələyi ərəb ölkələrinə də göndərilir

**Bu il Cəlilabad rayonunun fermerləri sahələrdə bol məhsul yetişdirməyə nail olublar. Belə ki, rayon ərazisində 606 hektar sahədə çiyələk əkilib ki, bu da fermerlərin ümidlərini doğruldub.**

Mövsümün əvvəlindən etibarən sahələrdən 15 min 850 tondan çox məhsul yığılıb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə xeyli çoxdur. Bu il rayonda hektarın orta məhsuldarlığı 26,16 ton təşkil edib. Ötən ilin müvafiq dövründə isə bu rəqəm 25,41 ton olub. Hazırda təsərrüfatlarda çiyələk yığımı davam edir

Yeri gəlmişkən, bu il Cəlilabad çiyələyinin ilk dəfə ərəb ölkələrinə də ixracına başlanılıb. Ümumilikdə isə, yığılan məhsulun 11 min 945,5 tonu Rusiya, Belarus və ərəb ölkələrinə ixrac olunub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# Təmiz ekoloji mühitə keçid Azərbaycanda milli hədəfdir

*2030-cu illədək ölkəmizdə 7 GVt bərpaolunan enerji gücləri işə salınacaq*

**Azərbaycan neft-qaz ölkəsi olmasına baxmayaraq neft emalı sahəsində bütün ekoloji qaydalar daim diqqət mərkəzində saxlanılır. Respublikamızın qoşulduğu təbiətdən istifadə və ətraf mühitin mühafizəsi üzrə konvensiyalar, sazişlər, müqavilələr milli ekoloji qanunvericiliyin ayrılmaz hissəsi hesab edilir.**

Xəzər dənizinin respublikamız, eləcə də digər Xəzəryanı ölkələr və bəşəriyyət üçün mühüm önəm daşıması, onun ekosistemlərinin həssas və dayanıqlı olması, bütün sahilyanı ölkələrin dənizdə getdikcə artan fəaliyyətlərinin (neft-qaz yataqlarının istismarı, dənizdə gəmi və boru kəmərləri daşımaları və s.) aktivləşməsi nəzərə alınaraq Dövlət Neft Şirkəti ekoloji siyasətində bu dənizin gələcək nəsillər üçün qorunub saxlanılmasına prioritet vəzifə kimi yanaşır.

Xəzər dənizində fəaliyyət göstərən beynəlxalq konsorsiumun neft çıxardığı “Azəri-Çıraq-Günəşli” yataqları, dəniz boru kəmərləri sistemi və Səngəçal terminalı üçün “Neft dağılmaları üzrə fəaliyyət Planları”na uyğun real texniki sistem formalaşdırılıb. Neft dağılmalarının qarşısının alınması, ballast sularının və başqa tullantıların yığılması məqsədilə dənizdə fəaliyyət göstərən Rusiya, Qazaxıstan, Türkmənistan şirkətləri də müvafiq planlara və tədbirlər sistemlərinə malikdirlər.

Hazırda qarşıda duran əsas məsələlərdən biri neft və qaz hasilatında karbon tullantılarının sıfıra endirilməsinin həyata keçirilməsidir. Buna görə də Dövlət Neft Şirkəti fəaliyyətində yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirir, bu yöndə elmi-tədqiqat işlərini sürətləndirməklə karbon tullantılarını sıfıra endirməyə əsas istiqamət kimi yanaşır. Adıçəkilən şirkətin “Neft və Qazın Dekarbonizasiyası Xartiyası”na qoşularaq metan tullantılarının sıfıra endirilməsi kimi öhdəlik götürməsi də bunun bariz ifadəsidir.

Son 30 il ərzində Azərbaycan neft-qaz sektoru sayəsində mühüm iqtisadi inkişafa və rifahın yüksəlməsinə nail olub. Ölkəmizdə ümumdaxili məhsulun (ÜDM) üçdə biri, ixracın 90 faizi və birbaşa xarici investisiyaların isə 71 faizi bu sektorun payına düşüb. Buna görə də Azərbaycan aşağı karbonlu iqtisadiyyata uğurlu keçidi reallaşdırmaq və dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün qazıntı yanacağından tədrici imtina etməklə iqtisadiyyatda uğurlu diversifikasiya siyasəti yürütməyə başlayıb.

Belə bir fəaliyyətə əsaslanaraq respublikamız son illərdə qoşulduğu təbiətdən istifadə və ətraf mühitin mühafizəsi üzrə konvensiya və sazişlərə həssaslıqla yanaşıb, bu sahədə müsbət nəticələr əldə edib. Məhz elə bu amil də COP29-un ölkəmizdə reallaşması qərarını şərtləndirib, dünya ölkələrinin Azərbaycana bir daha böyük etimad və hörmət göstərmələrini əsaslandırıb.

Beləliklə, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı 29-cu sessiyasının– COP29-un bu il ölkəmizdə keçiriləcəyi ilə bağlı qərar ötən il dekabrın 11-də COP28-in 150-dən çox dövlət və hökumət başçılarının iştirakı ilə Dubayda reallaşan plenar iclasında qəbul olunub. Qeyd edək ki, bu, təsadüfi olmayıb. Çünki indiyədək COP-un konfransları qazıntı yanacağı ixracatçıları olan, lakin “yaşıl enerji”yə də fəal şəkildə sərmayə qoyan ölkələrdə keçirilib. Azərbaycanın da fəaliyyəti bu baxımdan yüksək dəyərləndirilib. Başqa sözlə, dünya ölkələrinin COP29-un Bakıda reallaşdırılacağı barədə yekdil qərarı respublikamızın iqlim dəyişikliklərinin qarşısının alınması sahəsində həyata keçirdiyi layihələrə verilən yüksək qiymətlə bağlı olub.



Yeri gəlmişkən, COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi bir daha təsdiq edir ki, ölkəmizin bu sahədəki fəaliyyəti BMT daxil olmaqla, beynəlxalq və qlobal təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Məhz bu səbəbdən də Azərbaycanın namizədliyi dəstək olunub və təsdiqlənib. Qeyd edək ki, ölkəmiz regionda “yaşıl” enerjinin inkişafına ən çox investisiya yatıran ölkələrdən biri (son illər bu sahəyə yönəlmiş sərmayələrin həcmi 1 milyard dollardan artıqdır) kimi qiymətləndirilib.

Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərindən biri dekarbonizasiya tədbirlərinin tətbiqi ilə “yaşıl” inkişafı və neft- qaz layihələrinin icrasını özündə birləşdirən enerji keçidinin təmin edilməsinə balanslaşdırılmış yanaşmadır. Ekspertlərin sözlərinə görə, külək və günəş enerjisi sahəsində yeni irimiqyaslı layihələrin həyata keçirilməsi yüksək texnologiyalı enerji saxlama sistemlərinin tətbiq edilməsi ilə müşayiət olunur. Ümumilikdə, ölkədə 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sahəsində 7 GVt istehsal gücünün yaradılması planlaşdırılır ki, bu da Azərbaycana Avropaya “yaşıl” enerjinin aparıcı ixracatçılarından biri olmaq imkanı vermək deməkdir.

Ölkəmizdə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli isə Prezident İlham Əliyevin 2021-ci il fevralın 2-də imzaladığı sərəncamla təsdiqlənən “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri” ilə qoyulub. Sənəddə diqqətə çatdırılan 5 milli prioritetdən biri “təmiz ətraf mühit” və “yaşıl artım”la bağlı olub. Bununla da respublikada “yaşıl” iqtisadiyyata keçid mərhələsi başlanılıb. Bu prioritetlər qəbul edilənə qədər isə Azərbaycanın Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin reallaşdırılmasını şərtləndirən müqavilə (9 yanvar 2020-ci il) əsasında 2022-ci il yanvarın 13-də “Xızı–Abşeron” Külək Elektrik Stansiyasının Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. Həmin il martın 15-də isə Bakıda “Qaradağ” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində “Masdar” şirkəti ilə 4 anlaşma memorandumu imzalanıb və “Masdar” şirkəti ölkəmizdə 230 MVt gücündə “Qaradağ” Günəş Elektrik Stansiyası (GES) layihəsini reallaşdırıb. Stansiyanın hər il yarım milyard kilovat/saat elektrik enerjisi istehsal etməyə və atmosferə atılan tullantıların ildə 200 min tondan çox azaldılmasına imkan yaradacağı nəzərdə tutulub.

Onu da bildirək ki, erməni faşizminin işğal dövründə xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları dövlətimizin başçısı tərəfindən “Yaşıl enerji” zonası elan edilib. Eyni zamanda həmin ərazilərin dayanıqlı kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat, “ağıllı” şəhərlər, “ağıllı” kəndlər kimi innovativ yanaşmalara əsaslanmaqla və minlərlə hektar sahədə meşələri bərpa etməklə 2050-ci ilədək “Netto sıfır emissiya” zonasına çevrilməsi planlaşdırılıb.

# Naxçıvanda ekotəşviq aksiyası



**Naxçıvanda fəaliyyət göstərən yerli sahibkarların ekoloji qablaşdırmaya keçidi və AZS İSO 14001-2021 “Ətraf mühiti idarəetmə sistemləri” standartlarının tədbiqinə təşviq edilməsi diqqətdə saxlanılır.**

Bununla bağlı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Naxçıvan Sahibkarlar Konfederasiyası ilə birlikdə “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində COP 29 tədbirlərinə uyğun olaraq sahibkarlıq subyektlərinin ekoloji qablaşdırmaya təşviq olunması məqsədi ilə maarifləndirici tədbir keçirilib.

20-dən artıq sahibkarlıq subyektinin iştirak etdiyi tədbirdə iştirakçılara məlumat verilib ki, bu gün hər bir sahibkar mövcud istehsal sahələrində yaranan tullantıların təkrar emala göndərilməsi, eləcə də tullantısız istehsala cəlb edilməsi imkanlarının araşdırılmasını diqqətdə saxlamalıdır. Nəzərə alınmalıdır ki, istehsalatda istifadə olunan ekoloji qablaşdırma üçün xammal təkrar emal edilə bilir və bioloji parçalana bilən olduğundan qablaşdırmalar üçün ideal seçimdir. Qeyd olunub ki, ekoloji təmiz qablaşdırmaya ehtiyacı olan məhsulların müəyyənləşdirilməsi, biznes subyektlərinin bu sahədə mövcud olan beynəlxalq təcrübələrə yiyələnməsi və beynəlxalq milli standartların tətbiq olunması gələcəkdə yerli məhsulların yeni bazarlara çıxış imkanlarını da artıra bilər.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# Kağızsız hökumət iqlim təhlükəsizliyinə xidmət edir

*BMT təmsilçisi ölkəmizin bu yöndə uğurlarını yüksək qiymətləndirib*

**Rəqəmsal transformasiya prosedurları sadələşdirilməklə yanaşı, gələcəkdə dövlət xidmətlərinin daha rəvan çatdırılmasına da kömək edir. Bunu BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva “29 İqlim Söhbəti: COP29-a gedən yol” Proqramı çərçivəsində Bakıda keçirilən “Kağızsız hökumət: rəqəmsallaşma və innovasiyanın ətraf mühitə təsiri” adlı konfransda bildirib.**



Onun sözlərinə görə, kağızdan istifadə meşələrin azalmasına, istixana emissiyalarına səbəb olur. BMT rəsmisi deyib: “Bu gün Azərbaycanda kağızsız hökumətə keçməklə, təsəvvür edin, nə qədər ağac qorunacaq. Belə ki, rəqəmsal həll yolları ətraf mühitə çox ciddi şəkildə təsir edəcək. Sənədsiz və ya kağızsız hökumət, sadəcə, ağacları xilas etməklə kifayətlənmir, burada müxtəlif resurslara qənaət edilir ki, bu da karbon emissiyasının azalmasına gətirib çıxarır. Biz bununla, sadəcə, tullantıları azaltmırıq. Eyni zamanda məsuliyyətli istehlak mədəniyyətini formalaşdırırıq”.

COP29-a 67 gün qaldığını xatırladan Vladanka Andreyeva həmin günlər bütün dünyanın gözünün Bakıya yönələcəyini vurğulayıb. “COP29-da ən mühüm qlobal təşəbbüslər müzakirə ediləcək. Azərbaycan bu mötəbər tədbirə ev sahibliyi etməklə heç şübhəsiz ki, iqlim təşəbbüsləri tədbirləri kontekstində öz izini qoymaq niyyətindədir” – deyə o əlavə edib.

# Xızı-Abşeronun bol küləyi təmiz enerjiyə çevriləcək

**Regionun ən böyük “yaşıl” enerji qurğularından sayılan “Xızı–Abşeron” Külək Elektrik Stansiyasının tikintisi davam etdirilir. Layihə Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti tərəfindən icra olunur. Artıq layihə üzrə işlərin 30 faizindən çoxu tamamlanıb. Bura, əsasən, mühəndislik və mobilizasiya işləri daxildir. Ötən ay isə stansiyanın tikintisi üçün tələb olunan turbinlərin ilk partiyası Ələtdə yerləşən Bakı Beynəlxalq Dəniz Ticarəti Limanına gətirilib.**

“ACWA Power” şirkətinin Mərkəzi Asiya üzrə regional direktoru Abid Malik mətbuata müsahibəsində bildirib ki, stansiyanın tikintisi və istismarı zamanı ətraf mühitə təsirlərin minimuma endirilməsi üçün tədbirlər görülür. “Xızı–Abşeron” Külək Elektrik Stansiyası layihəsini Azərbaycanın az karbonlu iqtisadiyyata keçidində mühüm addım kimi dəyərləndirən regional direktor bildirib ki, sözügedən qurğu qalıq yanacaqlardan asılılığı və karbon emissiyalarını əhəmiyyyətli dərəcədə azaltmağa imkan yaradacaq ki, bu da Azərbaycanın karbon emissiyalarının azaldılması üzrə öhdəliklərinin yerinə yetirilməsinə mühüm töhfələr verəcək.

Onun sözlərinə görə, layihə tikinti və istismar mərhələsində minimal təsiri təmin etmək üçün ətraf mühitin mühafizəsi, sosial sahə və biomüxtəliflik üzrə ən yüksək dünya standartlarına cavab verir. Artıq ətraf mühitə və cəmiyyətə dəyəcək təsirin qiymətləndirilməsi çərçivəsində biomüxtəliflik, hava keyfiyyəti, səs-küy, torpaq, suyun keyfiyyəti və sosial-iqtisadi şərtlər kimi amillər daxil olmaqla əsas tədqiqatların tamamlandığını bildirən Abid Malik deyib ki, tikinti və istismar zamanı potensial təsirləri minimuma endirmək üçün mühüm tədbirlər həyata keçirilir.

Regional direktor, həmçinin təmsil etdiyi şirkətin yerli iş imkanları yaratmaq, texniki bacarıqları inkişaf etdirmək və infrastrukturu təkmilləşdirməklə icmaların inkişafını dəstəkləməyə çalışdığını vurğulayıb: “Layihə çərçivəsində maraqlanan tərəflərlə başladılan geniş məsləhətləşmə Abşeron rayonunun Sitalçay, Xızı rayonunun Çaylı kəndlərinin nümayəndələrini, Kiçik və Orta Biznesin İnkişafı Agentliyini əhatə edən icmaların inkişafı üzrə komitələrinin yaradılmasına gətirib çıxardı. Bu komitələr icmaların inkişafı və investisiya proqramlarını dəstəkləmək məqsədi daşıyır”.

Onun dediyinə görə, “ACWA Power” beynəlxalq standartlara, o cümlədən Avropa İnkişaf və Təşkilat Bankı, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının tələblərinə riayət edir: “Layihədə vəhşi



quşları qorumaq üçün “Identiflight” sistemi kimi qabaqcıl texnologiyalar istifadə olunacaq. Ətraf mühitin izlənməsi proqramları layihənin bütün dövrü boyunca standartlara uyğun olaraq həyata keçiriləcək”, – deyə regional direktor əlavə edib.

Xatırladaq ki, “Xızı–Abşeron” layihəsi Azərbaycanın Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti arasında külək enerjisi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ilə həyata vəsiqə qazanıb. Sözügedən sənədə əsasən 240 meqavatlıq külək qurğusunun tikintisi Səudiyyə Ərəbistanı şirkətinə həvalə olunub. Ötən müddətdə layihənin reallaşdırılmasına 300 milyon ABŞ dolları ayrılıb. Bu isə Səudiyyə Ərəbistanı şirkətinin öz ölkəsindən kənarda yatırdığı ən böyük investisiyasıdır.

“Xızı–Abşeron” Külək Elektrik Stansiyasının təməli isə 2022-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun iştirakı ilə qoyulub. İlkin hesablamalara görə, stansiyada ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa və 300 min evi elektrik enerjisi ilə təmin etməyə imkan verəcək.

Ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən “Xızı–Abşeron” Külək Elektrik Stansiyası layihəsi sənaye həcmli bərpaolunan ilk enerji layihələrindəndir. Eyni zamanda stansiya Azərbaycanın ilk, Qafqaz bölgəsinin isə ən böyük külək enerjisi istehsal edən qurğusu olacaq. Müqayisə üçün qeyd edək ki, hazırda ölkəmizdə ən böyük külək elektrik stansiyası Xızı rayonunun ərazisində yerləşən 50 meqavat gücündə olan “Yeni Yaşma” stansiyasıdır. Burada hər birinin gücü 2,5 meqavat təşkil edən 20 külək turbini quraşdırıldığı halda, “Xızı–Abşeron”da isə hər birinin gücü 6,5 meqavat olan 37 ədəd külək turbini fəaliyyət göstərəcək.

Stansiya iki məkanda – Abşeron rayonunun Zona-1 və Xızı rayonunun Xızı-3 ərazilərində inşa ediləcək və optimal külək yığımı nəzərə alınaraq yerləşdiriləcək. 25 il müddətinə “tikinti-sahiblik-istismar” (BOO - Build – Own – Operate) prinsipi ilə fəaliyyət göstərəcək stansiya “ACWA Power” şirkəti tərəfindən idarə ediləcək. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və enerji sisteminin modernləşdirilməsi məqsədlərini dəstəkləyən bu layihə, həm də qeyri-neft sektoruna xarici sərmayələrin artırılmasına töhfə verəcək.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Həsən Əliyev – 100

# Həqiqəti ədalətlə qorumuş hakim

**Görkəmli hüquqşünas, uzun illər Azərbaycan Ali Məhkəməsinin hakimi və sədr müavini olmuş Həsən Əliyevin 100 yaşı tamam olur. Ömrünü insanların hüquq və azadlıqlarının qorunmasına həsr etmiş bu insan illər keçsə də unudulmur, tanıyanların xatirəsində ədalətli və prinsipial hakim, etibarlı dost, vicdanlı hüquqşünas, qayğıkeş valideyn kimi yaşayır.**

Həsən Hüseyn oğlu Əliyev 1924-cü ildə anadan olub. Gənc yaşlarında Dünya müharibəsinə göndərilib, göstərdiyi hərbi rəşadətlərinə görə çoxsaylı orden və medallarla təltif olunub. O, cəbhədən qayıtdıqdan sonra BDU-nun hüquq fakültəsini bitirib, Hərbi Tribunalda, Zaqafqaziya və Azərbaycan Nəqliyyat prokurorluqlarında, hakim və sədr vəzifələrində çalışıb. 1957-ci ildə Azərbaycan Respublikasının Ali Məhkəməsinə üzv seçilib və 1990-cı ildə pensiyaya çıxana kimi orada çalışıb. 1972–1980-ci illərdə Ali Məhkəmənin sədr müavini olub. Həsən Əliyev birinci ixtisas dərəcəli hakim idi.



**Ali Məhkəmədə 33 il çalışan Həsən Əliyevi bu qurumun sabiq sədri Abdulla İbrahimov belə səciyyələndirmişdi:**

– Həsən Əliyevlə Ali Məhkəmədə 18 il birgə işləmişik. Mən sədr olmuşam, o da müavin. Həsənin ən gözəl cəhətlərindən başlıcası 2 əsas məfhuma həssaslıqla yanaşmasında idi: səlahiyyət və hakimiyyət. Bir çox hallarda müəyyən vəzifəyə təyin olunmuş adamlar bunu ayırd edə bilmədiklərindən qanunsuzluğa, ədalətsizliyə yol verirlər. Həsənin ən nümunəvi cəhəti fəaliyyətini səlahiyyəti çərçivəsində həyata keçirməsində idi. Mən fəaliyyətim boyu heç kimdə Həsən Əliyev qədər səlahiyyətinə sadiq şəxsə rast gəlməmişəm.

**Azərbaycan Respublikası Milli Məclisinin sabiq sədri, professor Murtuz Ələsgərovun Həsən Əliyev haqqında dedikləri:**

– Biz uşaqlıqdan 3 dost olmuşuq: Məmməd Xələfov, Həsən Əliyev və mən. Orta məktəbi də, ali məktəbi də birgə oxumuşuq. Həsən həmişə tələbələr arasında öz zəkası, seminarlarda cavab vermək bacarığı, hər bir mühazirə ətrafında analitik diskusiya açmaq istedadı ilə həmidan fərqlənirdi. Həsən müəllim daim ədalət axtarışında idi. İcraatında olan cinayət işlərinin hər detalına, cümləsinə qədər araşdırar, nəticə çıxarmağa tələsməz, tam əmin olandan sonra qərar verərdi. O, görkəmli hüquqşünas olmaqla yanaşı, həm də sadiq ailə başçısı, gözəl ata idi.

**Həsən Əliyevin həmkarlarından daha biri – Baş prokurorun müavini və Milli Məclisin sədrinin müavini olmuş Zakir Zeynalovun dediklərindən:**

– Həsən müəllim əsl hakim idi. Davranışı da, mədəniyyəti də, özünü aparması da nümunə idi. Öz iradəsini zorla başqasına yeritməyə çalışmaz, həmkarlarının fikrini öyrənərdi. Ali həqiqət harda idisə, Həsən müəllim də məhz orda olurdu. Mən onun bir dəfə də olsun haqsız qərar qəbul etdiyini görməmişəm.

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev də Həsən Əliyevi kamil bir hüquqşünas, əsl ziyalı kimi xatırlayır:**

– 1980-ci ildə təyinatla Ali Məhkəməyə məsləhətçi kimi işə başlayanda o zaman məhkəmə sistemində sayılan və hörmət sahibi olan hakimlərdən biri olan Həsən Əliyevlə tanış oldum. O, son dərəcə ciddi bir insan olduğundan çox danışmağı sevməzdi. Lakin hüquq elmini hədsiz sevdiyinə görə vaxtının azlığına baxmayaraq, biz gənclərin ona olan müraciətlərini səbrlə dinləyər, geniş fikir mübadiləsi apardı. Onun müdrik bir kəlamı bu gün də yaxşı yadımdadır: "İnsan öz hərəkətləri qarşısında məsuliyyət daşıyır. Hüquqşünasın məsuliyyəti isə ikiqat artıqdır – həm sözləri, həm də hərəkətləri qarşısında".

Həsən müəllimin xatirəsi həmkarlarına, bütün tanıyanlara ona görə əzizdir ki, öz bilik və təcrübəsini gənclərə çatdırmaqdan zövq alıb. O, cəmiyyətdə ədalətli və humanist hakim kimi tanınıb. Onun hüquqşünas kredosu belə olub: "Hakim qəbul etdiyi hər hansı qərara görə qanuni izah verə bilməsə, əsassız hökm çıxarmaqdan çəkinməlidir. Hər bir cinayət işinin arxasında canlı insan, onun ailəsi, taleyi durur". O, məhkəmə səhvlərinin mövcudluğunu da inkar etməzdi: "Elə səhvlər var, onları düzəltmək mümkündür. Səhvlər də var ki, onların islahı müşküldür, ya da mümkün deyil. Ona görə də qərar verəndə yüz ölçüb, bir biçmək lazımdır. Hökm vermə prosesində tələskənliyə yol vermək olmaz".

Sovet dövrünün son illərində Həsən Əliyev Sabir Rəzzaqov və Kamal Musayev də daxil olmaqla Ali Məhkəmədə ən ağır cinayət işlərinə baxan 3 təcrübəli hakimdən biri olub. Hələ 1989-cu ildə məşhur Sumqayıt hadisələri zamanı törədilmiş cinayət işləri üzrə məhkəmə baxışının icraatı da məhz Həsən Əliyevə tapşırılıb. Son dərəcə ağır olan bu cinayət işi barədə ədalətli qərar çıxarmaq üçün Həsən müəllim gecəli-gündüzlü çalışaraq işin mahiyyətini dərindən öyrənib, xüsusatları ətraflı araşdırıb. Bundan sonra o, qətiyyətli addım ataraq ədalətli hökm çıxarmağa nail olub. O, son hökmünü yuxarıdan gələn göstərişlərə baxmadan, vicdanının hökmü ilə elan edib. Lakin bu hökm, sonralar SSRİ rəhbərliyinin xoşuna gəlməyib və o, cəza tədbiri olaraq 1990-cı ildə yenidən hakim seçkisindən uzaqlaşdırılıb.

**Həsən Əliyev bu ədalətsizliyin nəticəsində işsiz qalanda o vaxtlar Bakı Şəhər Məhkəməsinin sədri olmuş İkram Kərimov onu məhkəmədə məsləhətçi işləməyə dəvət edib:**

– Həsən müəllimin təqaüdə göndərilməsi səhv addım idi. O hələ çox işləyə bilər, gənc hakimlərin yetişməsinə daha çox kömək ola bilərdi. Həsən Əliyevin şəhər məhkəməsinə gəlişi ruh yüksəkliyi ilə qarşılandı. Keçmiş tələbələri, diploma imza etdiyi şəxslər, vaxtilə işə götürdüyü və bərabər çalışdığı hüquqşünaslar ona böyük ehtiramla yanaşırdılar. Ömrünün son günlərini mənimlə birlikdə keçirməsini məmnunluqla xatırlayıram. O zaman 32 illik təcrübəmə baxmayaraq hər gün Həsən müəllimdən nəsə öyrənirdim.

Həsən müəllimin xoşbəxtliyi bir də ondadır ki, bu gün onun yolunu həmkarları, tələbələri və övladları davam etdirirlər. 2 oğlu, 4 nəvəsi, 8 nəticəsi var. Oğlu hüquq elmləri doktoru, professor Namiq Əliyevin Qarabağ həqiqətləri ilə bağlı sanballı kitabları və məqalələri 13 xarici dilə tərcümə olunub. Nəvələrinin 3-ü babasının yolunu davam etdirir – biri hüquq üzrə elmlər doktoru, biri isə fəlsəfə doktorudur.

Göründüyü kimi, Həsən Əliyev öz təcrübəsi və tövsiyələri ilə onlarla hüquqşünasın püxtələşməsinə yardımçı olub. O, mənalı ömrünü cəmiyyətdə ədalətin bərqərar olmasına həsr edib. Buna görə də onu tanıyanların qəlbində xoş xatirələrlə yaşayır.

*Aydın AĞAZADƏ,*
*Əməkdar jurnalist*

Azərbaycan müəllimi – 90

# Milli təhsilimizin salnaməsi



**Dünən Nizami Kino Mərkəzində Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan "Azərbaycan müəllimi" qəzetinin 90 illik yubileyi qeyd edilib.**

Mərasimdə çıxış edən "Azərbaycan müəllimi"nin baş redaktoru Sarvan İbrahimov qəzetin milli mətbuatın inkişafındakı rolundan bəhs edib. O qeyd edib ki, ölkəmizin təhsil salnaməsini yaradan "Azərbaycan müəllimi" 1934-cü il sentyabrın 2-dən "Kommunist maarifi" adı ilə nəşr olunmağa başlayıb. Sonrakı dövrlərdə "Müəllim qəzeti" adı ilə çap olunub. Qəzetin əsas məramı ölkəmizdə xalq maarifinin, təhsilin inkişafına xidmət etmək olub. Qəzetin nəşrində başlıca məqsəd ölkədə maarif işlərinin həyata keçirilməsinə dəstək göstərmək, tədris sahəsində qazanılmış ilk təcrübə və uğurları geniş təbliğ etmək, təhsillə bağlı qarşıda duran vəzifələri gündəmə gətirmək və onların reallaşdırılmasına nail olmaq idi.

Elm və təhsil naziri Emin Əmrullayev vurğulayıb ki, qəzet fəaliyyətinin ilk illərindən ölkənin elm və təhsil sahəsində baş verən yenilikləri, qabaqcıl dünya təcrübəsini oxuculara çatdıran mühüm yayım orqanı kimi kifayət qədər nüfuza malik olub.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxışında "Azərbaycan müəllimi" qəzetinin keçdiyi şərəfli yolu milli mətbuat tariximizin ayrılmaz tərkib hissəsi və qürur mənbəyi kimi dəyərləndirib. Əhməd İsmayılov çıxışında, həmçinin müstəqillik illərində Azərbaycan mətbuatına yaradılan imkanlardan danışıb. Vurğulayıb ki, Ümummilli lider Heydər Əliyevin senzuranın ləğvi kimi tarixi əhəmiyyətli qərarından sonra medianın inkişafı üçün əlverişli şərait yaradıb: "Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm kimi prinsiplər mətbuat və informasiya sahəsində Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsasını təşkil edir.

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, bu qəzet böyük bir epoxanın, dövrün, pedaqoji təhsil həyatımızın salnaməsidir. "Azərbaycan müəllimi" qəzetinin ən müxtəlif sahələrinin işıqlandırılmasında özünəməxsus rolu var: "Təhsilin geniş bir sahə olduğunu və hər bir ailənin təhsillə bağlılığını nəzərə alsaq, "Azərbaycan müəllimi" qəzetinin önəmini xüsusi qeyd etmək lazımdır. Qəzet təhsilin ən müxtəlif sahələrini əhatə etməklə yanaşı, eyni zamanda, müəllimlərə yol göstərməkdə, praktik kömək etməkdədir".

Digər çıxış edənlər qəzetin missiyasına sadiq qalaraq həm elm və təhsil sahəsində, həm də ictimai həyatda baş verməkdə olan önəmli hadisələri işıqlandırdığını vurğulayıblar.

*XQ*

# Kəlbəcərdə mövqelərimiz atəşə tutulub

**Sentyabrın 5-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Zağalı yaşayış məntəqəsi istiqamətindəki mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zivel yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**



Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

"Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb", - deyə məlumatda bildirilib.

*XQ*

# COP29 xüsusi viza portalı

**Bu ilin 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) COP29 konfransına hazırlıq işləri çərçivəsində ölkəmizə səfər edəcək çoxsaylı rəsmi şəxslər, nümayəndə heyətləri və digər qonaqların rahatlığının təmin olunması istiqamətində Azərbaycan hökuməti tərəfindən bir sıra addımlar atılır.**




COP29 iştirakçılarının viza müraciəti prosesini sadələşdirərək onların Bakıya səfərlərinin rahat və səmərəli şəkildə təmin olunması məqsədilə COP29 xüsusi vizasının əldə edilməsi üzrə müvafiq portal istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə "ASAN Viza" portalının COP29-la bağlı xüsusi viza müraciəti modulu www.evisa.gov.az/cop29 yaradılıb. Dünyanın 200-ə yaxın ölkəsindən on minlərlə iştirakçının COP29-a qatılacağı nəzərə alınaraq, portal ingilis, alman, fransız, ispan, ivrit, italyan, rus, ərəb, fars, Çin və Koreya dillərində fəaliyyət göstərir. Portal 24/7 rejimdə dəstək və tam elektron, kağız sənədsiz viza prosesini təklif edir.

Qeyd edək ki, www.evisa.gov.az/cop29 portalı vasitəsilə COP29 xüsusi vizası əldə etmək istəyən rəsmilər, nümayəndə heyətləri və digər qonaqların əvvəlcə UNFCCC-nin onlayn qeydiyyat sistemi vasitəsilə qeydiyyatdan keçmələri tələb olunur. COP29 xüsusi vizası müraciət ərizələrinin tamamlanmasından sonra 3 iş günü ərzində ödənişsiz şəkildə əldə edilə bilər.

COP29 xüsusi vizasının əldə olunması qaydaları ilə elektron təlimat və məlumatlandırıcı videoçarx vasitəsilə tanış olmaq mümkündür.

*XQ*

# İsveçdə "Ağdam kabusu"

**İsveçin UR telekanalı ABŞ və Böyük Britaniyanın birgə istehsalı olan "Tərk edilmiş binalar" adlı sənədli filmlər seriyasını yayımlayır.**



Film bir vaxtlar regionun müasir və mütərəqqi mədəniyyət mərkəzi olan, sonradan "barıt çəlləyinə" çevrilərək tez bir zamanda kabus şəhərə bənzəyən Ağdam haqqındadır. Filmin 8-ci mövsümünün "Dron müharibəsi" adlı 2-ci bölümü ermənilər tərəfindən dağıdılmış və yeganə tikilisi qalmış, kabusu xatırladan şəhərə həsr olunub.

Serialın bu bölümündə kimya mühəndisi Ceyqa Vays, müəllif və tarixçi Dominik Selvud, jurnalist Cim Meyds 1870-ci ildə tikilən, bir neçə silahlı münaqişədən salamat çıxan və erməni əsgərlərinin artilleriya atəşini istiqamətləndirmək üçün gözətçi qülləsi kimi istifadə edilən məscidin hekayəsi yer alıb. Evlərini tərk etmək məcburiyyətində qalan, bir çoxu həlak olan ağdamlıların qanlı taleyi yada salınır.

Filmdə 44 günlük müharibə nəticəsində işğaldan azad edilmiş Ağdama ilk gələnlərdən biri olan və maşınına mərmi atılandan sonra möcüzə nəticəsində sağ qalan hərbi müxbir Emin İbrahimov 1992-ci ildə atəşə tutulan və yalnız 3 divarı qalan Çörək muzeyindən bəhs edir.

Serialın sonunda 2021-ci ilin mayında baş planı təsdiqlənən, 100 min sakinin yaşayacağı və Azərbaycan futbol liqasında çıxış edən "Qarabağ" komandasının oynayacağı şəhərin dirçəldilməsi barədə danışılır.

*XQ*

# SOSİAL XƏBƏRLƏR

## Laçın və Füzulidə "Smart DOST"




***İşğaldan azad edilmiş ərazilərimizdə DOST xidmətləri infrastrukturunun genişləndirilməsi işləri çərçivəsində bu il Laçın və Füzuli şəhərlərində də "Smart DOST" məntəqələri yaradılacaq. Bu barədə məlumat aldığımız Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bu istiqamətdə hazırlıq işləri aparılır.***

Qeyd edək ki, 2022-ci ilin may ayında Zəngilan rayonunun Ağalı kəndində ilk "Smart DOST" məntəqəsi açılıb. "Smart DOST" sistemi ilə vətəndaşlar əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahəsində onlayn formada 100-dən çox xidmətdən şəffaf, rahat və əlçatan şəkildə faydalana bilir.

DOST agentləri məntəqəyə daxil olub müraciət edən vətəndaşlara xidməti onlayn qəbul sistemi vasitəsilə virtual olaraq həyata keçirirlər.

## Agentlik beynəlxalq mükafat alıb

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, DOST Agentliyi "Ən yaxşı sosial təsir" kateqoriyasında da İnsan Kapitalının İdarə Edilməsi üzrə Mükəmməllik Mükafatına layiq görülüb.***




ABŞ-də yerləşən "Brandon Hall Group" tərəfindən təşkil olunan müsabiqəyə sosial müdafiə, məşğulluq, əlillik, əmək münasibətləri sahələrində DOST xidmətlərinin göstərilməsində, eləcə də bərabərliyin və inklüzivliyin təmin olunmasında "Könüllü DOST" proqramının təcrübəsi təqdim olunub.

30 ildir fəaliyyət göstərən "Brandon Hall Group" insan kapitalının idarə edilməsi üzrə təhlil və araşdırmalar aparan, sertifikatlar və qabaqcıl təcrübələrə görə Mükəmməllik Mükafatları təqdim edən və peşəkar inkişafı dəstəkləyən, bu sahədə qabaqcıl təcrübələri təbliğ edən təşkilatdır.

Mükafatın təqdimetmə mərasimi 2025-ci ilin yanvar ayında ABŞ-nin Florida ştatının Uest Palm Biç şəhərində keçiriləcək.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# Təhsil işçilərinin sentyabr konfransları





**Ölkənin təhsil sistemində yeni dərs ilinə son hazırlıq tədbirləri davam edir. Şəhər və rayonlarda keçirilən ənənəvi sentyabr müşavirələrində pedaqoji kollektivlər ötən tədris ilinin uğurlarına yekun vurur, yeni mövsümdə qarşıda duran vəzifələri müzakirə edirlər. Dünən Gəncə-Daşkəsən, Şəki-Zaqatala və Mərkəzi Aran regional təhsil idarələrində keçirilən toplantılarda da hesabatlar dinlənilib, növbəti hədəflər açıqlanıb.**

Gəncə konfransında çıxış edən Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov ümumi və məktəbəqədər təhsil üzrə prioritet istiqamətlər haqqında məlumat verib, təhsilin idarə edilməsində əlçatanlıq və şəffaflığın təmin olunması üçün qarşıda duran vəzifələri iştirakçıların diqqətinə çatdırıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov pedaqoji kollektivlərin təmsilçilərini qazanılmış ümumi uğurlara görə təbrik edib, yeni tədris ilində onlara uğurlar arzulayıb. Gəncə–Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev 2023–2024-cü tədris ilində görülən işlərdən, region üzrə həyata keçirilən yeni təhsil layihələrindən danışıb. Təhsil İnstitutu Təhsilverənlərin Peşəkar İnkişafı Mərkəzinin direktoru Nəzakət Mehdiyeva pedaqoji prosesin uğurlu təşkili ilə bağlı həyata keçirilən tədbirlər barədə məlumat verib.

*

Şəki–Zaqatala Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransında çıxış edən Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil siyasəti şöbəsinin müdir müavini Nəriman Qəhrəmanlı ölkə məktəblərinin və uşaq tərbiyə ocaqlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı görülən işlər barədə məlumat verib, növbəti tədris ilinin prioritet istiqamətlərini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev yeni tədris ilində pedaqoji kollektivlərin başlıca hədəfinin təhsilin səviyyəsinin yüksəldilməsi olduğunu qeyd edib, onlara uğurlar arzulayıb. Sonra Şəki–Zaqatala Regional Təhsil İdarəsinin müdiri Günay Mahmudova ötən dərs ilinin hesabatını təqdim edib. Təhsil İnstitutunun Qiymətləndirmə, Təhlil və Monitorinq Mərkəzinin direktoru İbrahim Baxışlı ölkə üzrə imtahan, olimpiada və müsabiqələrin nəticələri, növbəti tədris ili üçün nəzərdə tutulan layihələr barədə məlumat verib. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*

Mərkəzi Aran Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin Mingəçevirdə keçirilən konfransında Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov pedaqoji şəbəkədə aparılan islahat və nailiyyətlərdən söz açıb, iştirakçılara uğurlar arzulayıb.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov şəhərin təhsil ocaqlarının uğurlarından və hədəflərindən danışıb, qarşıdan gələn Bilik Günü münasibətilə konfrans iştirakçılarını təbrik edib. Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev isə region məktəblərini uğur göstəriciləri barədə məlumat verib.

Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov hesabatla çıxış edib. Sonda konfrans iştirakçılarının fikirləri dinlənilib, sualları cavablandırılıb.

***XQ***

# Yeni musiqi əsərləri də tədris ediləcək

**Bəstəkarlarımızın son dövrlərdə yazdığı əsərlər də musiqi və incəsənət məktəblərinin tədris proqramına daxil ediləcək. Bu barədə Mədəniyyət Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqı birgə razılığa gəlib. Hazırlanacaq not nümunələri sistemli şəkildə elektron daşıyıcılarda və kağız formatında məktəblərə veriləcək.**

**Mədəniyyət Nazirliyinin media və kommunikasiya şöbəsinin müdiri Aynur Kərimli bu barədə məlumat verərək bildirdi:**

– Materialları Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Bəstəkarlar İttifaqı hazırlayacaq. Yeni bəstələrin müvafiq təhlillər aparıldıqdan sonra proqramlara əlavə olunacağı nəzərdə tutulur. 2024/2025-ci dərs ilindən başlayaraq tədris olunacaq əsərlər arasında Firəngiz Əlizadənin “Zəfər marşı”, Elnarə Dadaşovanın, Adilə Yusifovanın fortepiano üçün pyesləri və “Yaz nağılı” kantatası, Sərdar Fərəcov, Faiq Nağıyev, Mehriban Əhmədova, Zabitə Məmmədova, Cahangir Zülfüqarov, Pikə Axundova, İlahə Qismət və digər bəstəkarların uşaqlar üçün musiqi əsərləri yer alır.



Bu təşəbbüsün əsas məqsədi yeni nəsil musiqiçilərin milli və müasir üslubları mənimsəməsinə kömək, yeni nəsil bəstəkarların yaradıcılığının təbliğidir.

**Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, bəstəkar Elnarə Dadaşova təşəbbüsə münasibətini belə ifadə etdi:**

– Uşaqlara ünvanlanan musiqilərimizin məktəb, bağça və liseylərdə bu və ya digər formada təbliğ olunması çoxdankı arzumuz idi. Təəssüf ki, uşaqlar üçün yazılan musiqi onlara lazımınca çatdırılmırdı. Odur ki, məktəblərimizdə bəstəkarların əsərlərinin tədris olunması təşəbbüsünü alqışlayıram. Bu addım müsbət nəticələrə yol açacaq. Düzdür, bir qədər gecikmişik, amma uşaqların düzgün musiqi tərbiyəsi almaları günün tələbidir. Mədəniyyət Nazirliyi ilə müzakirələrimiz zamanı belə bir fikir irəli sürdük ki, musiqi materiallarını elektron formada hazırlayaq. Hər bir bəstəkar öz əsərini yoxlasın, sonra onu təqdim edək. Çünki əvvəlki təcrübə özünü doğrultmayıb. Yeni əsərlər əlyazma şəklində götürülüb, yığılmış variant bəstəkara göstərilmədən çap olunub. Buna görə də bəzən təhriflər olub. Elektron variantda hazırlanan materiallar isə nəşr baxımından çox rahatdır. Bu əsərlər müəlliflərin əqli mülkiyyətidir və onlar qorunmalıdır.

Qeyd edək ki, uşaqların musiqi təhsilinin təkmilləşdirilməsində istedadla yazılmış əsərlərin mənimsənilməsi önəmlidir. İnanırıq ki, təşəbbüs şagirdlərin bilik və bacarığına, estetik tərbiyəsi və zövqünə müsbət təsir edəcək.

***Ceyhun ALIŞLI***
***XQ***

# Bir rəssamın sənət yolu

**Bir çox rəssamlar kimi danışmağı sevməyən, artıq 80 yaşı olan Rafael Əsədovla ünsiyyət adama xoş əhval gətirir. Televiziya və kinoda önəmli işlərindən xəbərdar olsaq da, əksəriyyətimiz onu yaxından tanımırıq. Başını aşağı salıb işini görənlərdəndir. İnternetdə də onun haqqında məlumat yetərincə deyil. Buna görə də özü ilə üzbəüz görüşüb söhbət elədik.**

Rafael Əsədov dedi ki, onun haqqında vaxtilə AzTV-də birgə çalışdlığımız rejissor Şərif Qurbanəliyev “Bir rəssamın monoloqu” adlı sənədli film çəkib. “Öz haqqımda nə deyim ki? Həmin filmdə hər şey var”.

Həvəslə baxdığımız filmin ilk kadrları onun doğulub böyüdüyü Masallı şəhərində lentə alınıb. Rəssam monoloqunda uşaqlıq illərini xatırlayır, o böyüdükcə qızılgüllərlə dolu olan həyətlərinin sanki balacalaşdığını söyləyir. Amma sevinir ki, hər dəfə bura gələndə valideynlərinin ruhlarını hiss edir.





Doğma ocağı 16 yaşında tərk edib Bakıya gedən gənc rəssam “Ömür tək bu gün deyil ki, həm də dünəndir, yaşananlardır”, – deyir.

Ədəbiyyat həvəskarı olan atasının evdəki çoxsaylı kitablarının şəkilləri, illüstrasiyaları uşaq yaşlarından onu söz sənətinə deyil, rəssamlığa meyilləndirib. İlk vaxtlar həmin şəkillərin üzünü rəngli karandaşla ağ vərəqlərə köçürüb, sonra Masallının mənzərələrini çəkib. Oğlunu kimyaçı görmək istəyən ata onun rəssamlığa həvəsini görərək, bu sənətin arxasınca getməsinə razılıq verib. Amma Rafael Bakıya, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə ilk gəlişində foyedəki rəsmləri görüncə, belə əsərlər yarada bilməyəcəyini düşünüb və imtahan verməndən geri qayıdıb. Növbəti ildə bir qədər də püxtələşib özünə güvənən gənc təzədən Bakıya üz tutub və Rəssamlıq Məktəbinə qəbul edilib. Orada sənətin incəliklərinə dərindən yiyələnib. Məktəbi bitirdikdən sonra bir müddət doğma rayonunda işləyib. Sonra tale yolları onu yenidən paytaxta gətirib.

Gənc rəssam 2 il paytaxtın müxtəlif yerlərində laborant, çertyojçu vəzifələrində işləyib, kirayələrdə yaşamalı olub. “Yazıçı”, “Gənclik”, “Maarif” və s. nəşriyyatlarda, “Pioner”, “Ulduz” jurnallarında Azərbaycan və dünya ədəbiyyatı nümunələrinə yüzlərlə illüstrasiya çəkib ki, bunların da bir qismi hazırda respublika muzeylərinin dəyərli eksponatıdır. Nəhayət, 1968-ci ildə rəssam dostu Ədalət Həsənovun köməkliyi ilə Azərbaycan dövlət televiziyasında işə düzəlib. Daha da kamilləşsin deyə, təhsilini davam etdirmək istəyən Rafael Gertsen adına Leninqrad Pedaqoji İnstitutunun bədii qrafika fakültəsinə daxil olub. Amma ailə vəziyyəti ilə əlaqədar orada oxumayıb, anasının təkidi ilə sənədlərini alaraq geri qayıdıb. Sonra Bakıda İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsini bitirib.

O, AzTV-də 40 ildən artıq çalışıb, əvvəlcə şriftçi rəssam olub, sonra müxtəlif studiya verilişlərində, səhnəciklərdə rəssamlıq edib. Minnətdarlıqla xatırlayır ki, bir dəfə tanınmış rejissor Rauf Kazımovski onun maraqlı bir dekorasiyasını görərək, birgə çalışmağa dəvət edib. Beləcə, Rafaelə böyük tamaşaları da etibar ediblər və öhdəsindən bacarıqla gəlib. Onlarla televiziya tamaşasının, filmlərin mahir quruluşçu rəssamı olub. Sonra illərcə baş rəssam kimi fəaliyyət göstərib və işləri daim bəyənilib.

Rəfael Əsədov hamının həvəslə baxdığı “Evləri köndələn yar”, “Yaşıl eynəkli adam”, “Qonşu qonşu olsa”, “Nigarançılıq”, “Fatehlərin divanı”, “Ac həriflər”, “Bala, başa bəla” kimi neçə-neçə unudulmaz tamaşaya uğurlu rəssamlıq quruluşu verib. Bu tamaşaların hamısı dövlət televiziyasının qızıl fondunda qorunub saxlanır, vaxtaşırı proqrama salınır. Yeri gəlmişkən, onunla söhbətimiz zamanı hiss etdim ki, bu tamaşalardan özünün ən çox sevdiyi “Fatehlərin divanı”dır. Çünki eyni kollektivdə çalışdığımız üçün mən də xəbərdaram ki, bu tamaşada həm quruluşçu rəssama, həm geyim, dekorasiya rəssamına aid olan bütün digər işləri o, özü tək görüb. Bir də ilk böyük işi kimi, Xalq yazıçısı Anarın ssenarisi əsasında Ramiz Mirzəyevlə birlikdə hazırladığı “Ötən ilin son gecəsi” teletamaşasını fərəhlə xatırlayır.

Onu da deyim ki, 1997-ci ildə “Topal Teymur”, “Ac həriflər” və “Nigarançılıq” televiziya tamaşalarının bədii həllinə görə rejissor Ramiz Mirzəyev və operator Eldar Məmmədovla birlikdə rəssam Rəfael Əsədov “Humay” mükafatına layiq görülüb. 2001-ci ildə isə Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi adını alıb.

...“Bir rəssamın monoloqu”nun növbəti kadrlarının çəkildiyi məkan hazırda Rəssamlıq Akademiyasının tabeliyində olan Ə.Əzimzadə məktəbidir. Tələbəlik dostu – tanınmış heykəltaraş Xanlar Əhmədovla dəhlizləri, otaqları gəzə-gəzə o illərin həzin, kövrək xatirələrinə dalır. Müəllimlərdən çəkinə-çəkinə oxuduqları dövrü bir qədər də xiffətlə yada salırlar. Hazırda Rafael Əsədov özü müəllimdir: 2017-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin təsviri sənət kafedrasında dərs deyir.

Filmdə tanınmış teatr, kino və televiziya rejissoru, “Azərbaycantelefilm”in direktoru, Xalq artisti Ramiz Həsənoğlu onun haqqında deyir: “İnsanlar var ki, adları çəkiləndə istər-istəməz, gördükləri işlər göz önünə gəlir. Bu mənada Rafael Əsədov bir növ Azərbaycan teleməkanında brend sayılır. Onunla işləyəndə adam çox arxayın olur. Digər rəssamlardan fərqli olaraq, səhərlər mənimlə birlikdə, işə gecikmədən pavilyona vaxtında gəlməsi, dekoratorları yubatmaması ilə fərqlənib. İnanıram ki, bundan sonra da onunla birlikdə uğurlu işlərimizi davam etdirəcəyik”.

Rafael müəllimin həyat yoldaşı Afaq xanım, qızı Əfşan, oğlu Anar da rəssamdırlar. Ailədə sənət mövzusunda söhbətləri, mübahisələri olanda onun söylədikləri birmənalı olaraq ehkam kimi qəbul edilir. Bilirlər ki, qərəzsiz olur, yalnız tam əminliklə bildiklərini, özü də ciddi arqumentlərlə dilə gətirir, hamının əsl həqiqətə güvənməsini istəyir. Elə universitetdə tələbələri də bu keyfiyyətlərinə görə onu çox sevirlər.

***Əli NƏCƏFXANLI***
***XQ***

# “Qərbi Azərbaycan aşıqları” layihəsi başa çatıb



**Azərbaycan Aşıqlar Birliyinin təşəbbüsü ilə Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarının yer aldığı audiodiskin dünən təqdimatı oldu. Disk aşıq sənətinin araşdırıcıları, gənc aşıqlar və bu musiqinin həvəskarları üçün dəyərli bir mənbədir.**

Mərasimdə giriş sözü söyləyən Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı söylədi:

– “Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı” adlı layihə çərçivəsində ərsəyə gəlmiş audiodisk aşıq sənətinə əvəzsiz töhfədir. Qərbi Azərbaycan musiqi toplusunda aşıq mühitləri ilə bağlı saz havalarına və tarixi yerlərimizə həsr edilmiş şeirlərə üstünlük verilib. Aşıqlar Birliyi aşıq mühitinin öyrənilməsinə və təbliğinə bundan sonra da böyük diqqət yetiriləcək. Məqsəd ölkəmizin müxtəlif guşələrində məskunlaşmış aşıqların irsini qorumaq, musiqi repertuarını zənginləşdirmək, yardımçı olmaq və ictimaiyyətə təqdim etməkdir.



AAB-ın katibi və layihə rəhbəri Musa Nəbioğlu isə bildirdi ki, diskdə əslən Qərbi Azərbaycandan olub, dədə-baba yurdlarından didərgin salındıqdan sonra respublikamızın müxtəlif guşələrində məskunlaşmış aşıqlarımızın musiqi repertuarı elektron mənbədə sistemli əks olunub. Göyçə, İrəvan, Zəngəzər, Dərələyəz, Ağbaba, Loru-Pəmbək kimi bütün aşıq mühitlərinin əhatə olunmasına xüsusi diqqət ayrılıb. Diskdə 24 müxtəlif aşıq havası yer alıb ki, bunları da əslən Qərbi Azərbaycandan olan Əməkdar mədəniyyət işçiləri Fətulla Göyçəli və Bəhmən Göyçəli, eləcə də Faxfur Ağbabalı, Ələddin Musaoğlu, Xanlar Xəlilov, İmran Xəlilov, İxtiyar Qocayev, Vaqif İbrahimov kimi ustad aşıqlarla yanaşı, Rəfiqə Göyçəli, Nərmin Salahova, Familə Göyçəli, Elməddin Bayramlı, İmralı Fikrətoğlu, Ləman Mirzəyeva, Ayaz Əzizoğlu və digər gənc istedadlı aşıqlar ifa ediblər. Bu audiodiskin nüsxələri aşıq sənətinin tədris olunduğu universitet və kolleclərə hədiyyə ediləcək.

Moskvada fəaliyyət göstərən professor, Göyçə əsilli Şakir Səmədoğlu, ADMİU-nun dosenti, ustad aşıq Altay Məmmədli və Yusif Ağbulaqlı layihənin Qərbi Azərbaycan aşıq mühitlərinin öyrənilməsində və ənənənin qorunub yaşadılmasında müstəsna rol oynayacağını vurğuladılar.

Yığıncaq aşıqların ifasında konsert proqramı ilə davam etdi.

***C.BALABƏY***
***XQ***

# Rusiya Kamala Harrisi dəstəkləyəcək

**Rusiya prezidenti Vladimir Putin Şərq İqtisadi Forumunun plenar iclasındakı çıxışında bir sıra aktual beynəlxalq mövzulara toxunub. Cənab Putin Ukrayna ilə danışıqların pesrpektivindən danışıb. Bundan başqa, o, ABŞ-də noyabr ayında keçiriləcək prezident seçkilərində demokratların namizədi Kamala Harrisi dəstəkləməyə çağırıb.**




Şərq İqtisadi Forumu Rusiyanın Uzaq Şərqinə xarici investisiyaların stimullaşdırılması və Asiya-Sakit okean regionunda iqtisadi əməkdaşlığın inkişafı məqsədi ilə hər il Vladivostokda keçirilir. Forumda iqtisadi məsələlərlə yanaşı, aktual beynəlxalq mövzulara da toxunulur. Bu dəfə də istisna olmadı. Rusiya prezidenti Vladimir Putin çıxışında Ukrayna ilə danışıqlar barədə fikirlərini açıqladı. Kremlin sahibi vurğuladı ki, Rusiya Ukrayna ilə danışıqlara razıdır, ancaq danışıqlar 2022-ci ildə İstanbulda əldə olunan razılaşmalar əsasında aparılmalıdır. Onun sözlərinə görə, əvvəllər bu razılaşmalar Ukrayna üçün uyğun idi, lakin ölkə hakimiyyəti Qərbin göstərişi ilə bundan imtina etdi.

Putinin sözlərinə görə, 2022-ci ilin martında İstanbulda keçirilən danışıqlarda Rusiya və Ukrayna nümayəndə heyətləri "mümkün sülh sazişinin demək olar ki, bütün parametrləri"ni razılaşdıra bilmişdilər. Onun sözlərinə görə, razılaşma şərtlərini Ukrayna nümayəndə heyətinin rəhbəri David Araxamiya da təsdiqləmişdi: "Bəli, hələ də yekunlaşdırılmalı olan bəzi məqamlar var idi, amma ümumilikdə viza qalır, bu sənəddir. Sonra cənab Conson gəldi (Boris Conson danışıqlar zamanı Böyük Britaniyanın baş naziri vəzifəsini icra edirdi – XQ), məlum olduğu kimi, Britaniya hakimiyyət orqanları bunu təsdiqləyir və ukraynalılara sonuncu ukraynalıya qədər döyüşmək göstərişi verir. Bu gün bunlar Rusiyanın strateji məğlubiyyətinə nail olmaq üçün baş verənlərdir".

Xatırladaq ki, İstanbul sazişləri paketinə Ukraynanın NATO-ya üzv olmaqdan və nüvə silahı hazırlamaqdan imtinası da daxil idi. Rusiya ilə danışıqlarda Ukrayna nümayəndə heyətinə başçılıq edən Ali Radada "Xalqın qulluqçusu" fraksiyasının lideri David Araxamiya demişdi ki, 2022-ci il İstanbul danışıqlarında Rusiya nümayəndə heyəti Ukraynanın NATO-ya üzv olmaqdan imtina edəcəyi təqdirdə müharibəni dayandırmağı təklif etmişdi. Ukrayna nümayəndələrinin niyə bu təklifi qəbul etmədiyi sualına cavab olaraq, cənab Araxamiya bildirmişdi ki, bunun üçün Ukraynanın NATO-ya üzv olacağını bildirən Konstitusiyanın dəyişdirilməsi tələb olunacaqdı. Bundan əlavə, siyasətçi açıqlamışdı ki, Ukrayna hakimiyyəti ruslara etibar etmir: "Rusların bunu edəcəyinə inam yox idi. Bu, yalnız təhlükəsizlik təminatları olduqda edilə bilərdi... Üstəlik, biz İstanbuldan qayıdanda Boris Conson Kiyevə gəldi və dedi ki, biz onlarla ümumiyyətlə, heç nə imzalamayacağıq və gəlin vuruşaq".

Rusiya lideri forumda dünyanın diqqətlə izlədiyi ABŞ prezident seçkilərinə münasibətini də açıqlayıb. V.Putin prezident seçkilərində Kremlin favoritinin ABŞ-nin hazırkı prezidenti Co Baydenin olduğunu bildirib, lakin o, seçkilərdə iştirakdan imtina etmək qərarına gəldiyindən və tərəfdarlarını vitse-prezident Kamala Harrisi dəstəkləməyə çağırdığından, Kreml də bunu edəcək: "Favoritlərə gəlincə, bunu müəyyən etmək bizim işimiz deyil. Bu, hələ də Amerika xalqının seçimidir. Dedim ki, bizim sevimli, belə demək mümkünsə, indiki prezident cənab Bayden idi. O, yarışdan kənarlaşdırıldı, lakin bütün tərəfdarlarını xanım Harrisi dəstəkləməyə təşviq etdi. Biz də bunu edəcəyik – onu dəstəkləyəcəyik. Bu, ilk növbədə. İkincisi, o, çox ifadəli və yoluxucu şəkildə gülür. Bu o deməkdir ki, onda hər şey yaxşıdır".

Rusiya prezidenti qeyd edib ki, indi yenidən dövlət başçısı postuna iddialı olan ABŞ-nin 45-ci prezidenti Donald Tramp ondan əvvəl heç bir Amerika prezidentinin tətbiq etmədiyi qədər sanksiya tətbiq edib. "Əgər xanım Harris yaxşı işləyirsə, o zaman, bəlkə də, bu cür hərəkətlərdən çəkinəcək. Son nəticədə seçim Amerika xalqının ixtiyarındadır və biz bu seçimə hörmətlə yanaşacağıq", – deyə cənab Putin əlavə edib.

***S.ELAY***
***XQ***

# BRICS "dollarsızlaşma"nı təşviq edir

**ABŞ dolları dünyanın əsas aparıcı valyutasıdır. Bu, Vaşinqtona beynəlxalq səhnədə əhəmiyyətli üstünlük verir. Onun geosiyasi mövqeyini möhkəmləndirir, sanksiyalar tətbiq etməyə və maliyyə bazarlarına nəzarətə imkan verir. Bunun ən parlaq nümunələrdən biri Rusiya Mərkəzi Bankının 640 milyard dollar valyuta ehtiyatının təxminən yarısının dondurulması və ödəniş sisteminə çıxışın məhdudlaşdırılmasıdır. Dolların belə bir təsir alətinə çevrilməsi isə onun etibarlı və təhlükəsiz valyuta kimi reputasiyasına xələl gətirir. Bütün bunlar bir çox ölkələri alternativlər axtarmağa məcbur edir. Bu istiqamətdə ən fəal olanlar BRICS-ə üzv ölkələrdir. Hazırda onların əsas səyləri dolların və SWIFT kimi ödəniş sistemlərinin hökmranlığını zəiflətməyə yönəlib.**



Bu sahədə ən fəallar isə Rusiya və Çindir. Moskva və Pekinin ABŞ-la gərgin münasibətləri var. Bu kontekstdə hər iki ölkə öz iqtisadiyyatlarını dolların təsirindən qorumağa çalışır. Qərb ölkələrindən tam müstəqil olacaq yeni ödəniş sisteminin yaradılması üzərində işləyirlər. Daxil olan məlumatlara görə, bu sistem blokçeyn texnologiyasına və rəqəmsal valyutalara əsaslanır. Üstəlik, mövcud Qərb analoqlarından fərqli olaraq, mərkəzləşdirilməmiş olacaq. Bu barədə "Vaşinqton tayms" qəzeti yazıb: "Ənənəvi ödəniş şəbəkələri tez-tez yüksək komissiyalar və vasitəçilərin iştirakı ilə əlaqələndirilir ki, bu da əlavə xərclər yaradır. Lakin mərkəzləşdirilməmiş sistem bu xərcləri əhəmiyyətli dərəcədə azalda bilər".

Bu yaxınlarda Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov belə bir sistemin tezliklə mümkünlüyünə eyham vurub. Kremlin Qərb maliyyə institutlarından müstəqil ödəniş mexanizmi yaratmaqda marağlı olduğunu təsdiqləyib. Onun sözlərinə görə, BRICS ölkələri üçün vahid ödəniş sisteminin yaradılmasının vaxtı çatıb. Artıq bu istiqamətdə müəyyən uğurlar da əldə olunub. Almaniyanın "Merkur" nəşri yazıb: "Çin və Rusiya kimi güclü ölkələr maliyyə bazarında köklü dəyişikliklər planlaşdırır. Onlar dollardan nə qədər az asılı olsalar, iqtisadiyyatları sanksiyalara bir o qədər davamlı olacaq. Bu səylər çərçivəsində ötən il BRICS ölkələri Qərbin nəzarətində olan SWIFT sisteminə alternativ olacaq öz ödəniş sistemini hazırladıqlarını elan ediblər. Yeni sistemin köməyi ilə Rusiya, Çin və tərəfdaşları ABŞ-dan asılı olmayaraq ticarət və maliyyə əməliyyatlarını həyata keçirə biləcəklər. Qurumun vahid valyuta yaratmaq və ticarət əməliyyatlarında ondan istifadə etmək planları da dolların təməlini dağıdacaq".

Bundan başqa, Yeni İnkişaf Bankı (NDB) kimi tanınan BRICS bankı 28 milyard dollar dəyərində "Maharaja istiqrazları" adlı qiymətli kağızları qlobal bazara çıxaracaq. Yeni istiqrazlar hökumətlər, maliyyə institutları və daimi investorlar üçün təqdim ediləcək. İstiqrazları gücləndirmək və müvafiq iqtisadiyyatların inkişafına dəstəyini təmin etmək üçün onları dollarla deyil, yerli valyutalarla almaq mümkün olacaq.

İstiqrazların buraxılması planı BRICS-in dollarsızlaşma (de-dollarizasiya) təşəbbüslərinin bir hissəsidir, çünki alyans qlobal iqtisadiyyatda islahatlar aparmaq məqsədilə ABŞ valyutasından asılılığı azaltmaq istiqamətində irəliləyir.

BRICS öz ödəniş sistemlərini yaratmaqla yanaşı, istiqrazlar buraxmaq və kriptovalyutaların tətbiqi ilə də dollarsızlaşmada uğur qazanacaq".

Nəşrin yazdığına görə, BRICS üzvlərinin təşviq etdiyi dollarsızlaşma Qərbin hökmranlığına son qoymağın bir yoludur. "Yaxın gələcəkdə BRICS ödəniş sistemi reallığa çevrilə bilər. Bu baş verəndə çoxqütblü qlobal iqtisadiyyatın yaradılmasının yolu açıq olacaq. Hazırda bu təşəbbüs bütün dünyada geniş dəstək alır. 159 ölkə yeni maliyyə sisteminə qoşulmağa hazırdır, onların bir çoxu bu və ya digər şəkildə kriptovalyutalardan istifadə edir".

ABŞ belə bir sistemin tətbiqi ilə meydana çıxacaq nəticələrdən narahatlığını ifadə edib. Çünki bu, ilk növbədə, beynəlxalq ödənişlərdə dolların rolunun azalmasına səbəb ola bilər. Ölkələr ABŞ valyutasından daha az istifadə edəcək ki, bu da onun dünya bazarlarına təsirinin azalması deməkdir: "BRICS ölkələri kriptovalyutalardan istifadəni qəbul etdikcə, qlobal ticarətdə ABŞ dollarının hegemonluğu zəifləyəcək. Qurumun ödəniş sisteminin uğurlu fəaliyyəti Qərbin hökmranlığına meydan oxuyaraq beynəlxalq maliyyədə güc balansını dəyişə bilər", – "Vaşinqton tayms" qəzeti məlumat yayıb.

Ağ evin milli valyutadan siyasi təzyiq rıçaqı kimi istifadə etmək istəyi həm də onun Valyuta Ehtiyatlarının Strukturunda mövqeyinə təsir edir. Rusiya Prezidenti Vladimir Putinin daha əvvəl qeyd etdiyi kimi, rəqiblərə təsir etmək cəhdləri ABŞ üçün strateji səhvə çevrilir. Bu, dolların Valyuta Ehtiyatlarının Strukturunda mövqeyinin itirilməsinə səbəb olur. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, 2000-ci ildə ABŞ valyutası dünya valyuta ehtiyatlarının 72 faizdən çoxunu təşkil edirdisə, 2023-cü ildə onun payı son 28 ildə ilk dəfə olaraq 58,41 faizdən aşağı düşüb. Hətta ABŞ-nin müttəfiqləri arasında da dollar ehtiyatları azalır. Bunun nəticəsidir ki, beynəlxalq valyuta ehtiyatlarının strukturunda digər valyutaların payı artır. Məsələn, hazırda mərkəzi bankların valyuta ehtiyatlarında avro - 21 faiz, Britaniya funtu - 4,62, Yapon yeni - 5,70, İsveçrə frankı - 0,2, digər valyutalar - 8,1, o cümlədən yuanın payı - 1,96 faiz təşkil edib.

Bəzi analitiklərin fikrincə, dolların mövqeyinin zəifləməsi bir tərəfdən BRICS-in fəaliyyəti ilə bağlıdırsa, digər tərəfdən dolların təsirindən xilas olmaq istəyən mərkəzi bankların beynəlxalq əməliyyatlarda digər valyutalardan istifadəsi ilə əlaqəlidir. Bu rəqəmlər rəqabət şəraitində ABŞ dollarının qlobal iqtisadiyyatda rolunun azalmasını əks etdirir. Bundan başqa, bir çox investorları ABŞ-nin büdcəsi və dövlət borcu ətrafında yaranmış vəziyyət narahat edir. Bu barədə "Freedom Finance Global"ın aparıcı analitiki Natalya Milçakova məlumat verib. Onun sözlərinə görə, ABŞ artan büdcə kəsirini ödəmək üçün daha çox borc götürməli olur. Belə bir şəraitdə, ABŞ dolları populyar valyuta kimi saxlamaq üçün faiz dərəcələrini artırmağa məcburdur. Yüksələn faiz dərəcələri isə dövlət borclarını bahalaşdırır, sənaye və ticarəti, xüsusən də ABŞ iqtisadiyyatının əsaslandığı ipoteka sistemini dayanıqsız edir. İndi ABŞ-nin dövlət borcu 34,6 trilyon dollara yaxınlaşır və bu il hakimiyyət ilk dəfə onun xidmətinə daha çox pul xərcləyəcək. Bunlar investorlarda dollara qarşı inamsızlıq yaradır.

Qeyd edək ki, xarici mətbuat BRICS ölkələrinin yeni ödəniş sistemi yaratmaq imkanlarını kifayət qədər diqqətlə izləyir. Bəxtəvəraq ki, bu proses sürətli deyil, çünki bu həm də qurumun iştirakçısı olan bütün dövlətlər arasında razılaşma tələb edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## Yaradıcılıq fəlsəfəsi

**Amerikalı Samuel Lenqli buxar mühərriki ilə işləyən uçan aparatı icad etdi və həmin aparatla yalnız 36 metr məsafə qət edə bildi. Ona qədər insan göyə ancaq uçan xalçalarla "səyahət" edə bilirdi. Bu 36 metrlik sıçrayışda insanın əli ilk dəfə göyə çatdı. Amma onlar hələ dəcəl oğlan uşağının ağacın başına dırmaşandan sonra yerə düşə bilmədiyi kimi, aşağı enməyi bacarmırdı. Rayt qardaşlarının taxtadan düzəldilmiş təyyarəsi isə bu məsafəni 260 metrə qədər uzatdı və beləcə, Andersenin, Jül Vernin qəhrəmanları kitabdan çıxıb həyata gəlməyə başladılar.**



Texniki tərəqqi inkişaf etdikcə insanın xəyalları gerçəkləşməyə başladı. İndi robotlar insandan heç nəylə seçilmir, onun əvəzinə düşünür, hərəkət edir, hətta deyiləni görə, romanı da yaza bilir. Amma bu, təzə hadisə deyil. Makedoniyalı İsgəndərdən sonra dünyanın ikinci zəka və hərb möcüzəsi sayılan Qədim Roma imperatoru Yuli Sezar iyirmi üç bıçaq zərbəsilə öldürüldükdən sonra onun dəfnində insanları heyrətə gətirən bir olay yaşanmışdı. İmperator tabutda bir böyrü üstdən o biri böyrü üstə çevrilmişdi. Sezarın silahdaşlarından olan Antonio xalqı onu öldürən sui-qəsdçilərə qarşı qaldırmaq üçün imperatorun mumiyasını düzəltdirmişdi və onu qurğu ilə hərəkətə gətirmişdi. Sezarın dəfn mərasimində yaşanılan bu olay tarixə məlum olan ilk robot adam örnəklərindən biridir.

# Xəyallar necə gerçəkliyə çevrilir?

Hələ 1206-cı ildə Diyarbəkirdə Əl-Cəzəri tərəfindən yazılan "Kitabül-xəyal" əsərində insan şəklində robotların necə düzəldildiyi və işə salındığı haqqında məlumat verilir. Onun kitabında hərəkət edən insan fiqurlarının rəsmləri öz əksini tapıb. Bir-birinə şərab təklif edən iki şeyx, əllərindəki kasalara içki süzən insanların olduğu qayıq, fil üstündə səyahətə çıxan adam və sair. Türk şairi Sunay Akın "Ay hırsızı" kitabında bu haqda daha ətraflı bilgi verir.



Həm hərəkət edən, həm düşünən robot adamı isə ilk dəfə macar əsilli Volfqanq Ritter von Kempelen yaradıb. Onun 1769-cu ildə yaratdığı robot adam masa arxasına keçib və qarşısındakı canlı insanla şahmat oynayıb. Kempelen imperatriça Terezanın dəstəyilə yaratdığı bu varlığa "Şətrənc oynayan adam" adını verib. Çoxları Kempeleni sehrbaz zənn etmişdi. Festivallarda, yarmarkalarda nümayiş etdirilən "Şətrənc oynayan adam"ı görmək üçün axın-axın insanlar gəlib onun tamaşasına dururdu. Bu robotu görənlər arasında alman şairi və mütəfəkkiri Höte də vardı. Həmin vaxt bu mexaniki varlığı Amerikaya aparmışdılar, Edqar Allen Po onu görüb heyran qalmışdı və bu möcüzə haqqında yazı yazmışdı. Bir gün insanların alın yazısı dediklərini tale sehrli şahmatçını yandırıb külə döndərdi. O, Çikaqodakı təsadüfi yanğın nəticəsində "ömrünü" başa vurdu.

Amma bu robot adam canlı insanı üstələyə, onu bütünlüklə əvəz edə bilmədi. Ayzek Əzimovun qəhrəmanına çevrildisə də ("Robot adam" romanı), vətəndaşlıq hüququ almaq ona qismət olmadı. Amerikalı rejissor Kris Kolumbus çox sonralar bu romanın motivləri əsasında eyni adlı film də çəkdi və bu film "Oskar" mükafatını qazandı. Texnikanın sürətlə inkişaf etdiyi bir dövrdə ata son model robot alıb evinə gətirir, robot təzliklə ailənin bir üzvünə çevrilir, düşünür, onların sevincini, kədərini paylaşır, evdə canlı insan kimi yaşamağa başlayır. Əsərin qısa mövzusu budur. Amma bu robot adam kitabdan çıxıb həyata gələ, səxsiyyət vəsiqəsi ala bilmir. İnsan zəkası göyləri fəth etməyin yollarını axtarıb tapsa da, neçə yüz illərdir bu robot adama can verə bilmir. Çünki bu səlahiyyət yalnız və yalnız Tanrıya məxsusdur.

Yeni dövrün futuristi sayılan Yuval Noah Harari "XXI əsr üçün 21 dərs" kitabında yazır ki, "qloballaşma qlobal birliyə aparmaq əvəzinə, "növ yaratmağa" aparıb çıxara bilər. İnsanın müxtəlif bioloji siniflərə və ya hətta növlərə bölünməsi baş verə bilər". Yəni super insan və homo sapiens. Əgər həyatın uzadılması və fiziki sağlamlığın inkişaf etdirilməsi sahəsindəki yeni müalicə metodları yaransa, bəşəriyyət bioloji zümrələrə bölünəcək. Harari yazır ki, gələcəkdə biz intellektin şüurdan ayrılmasının şahidi ola bilərik və süni intellektin inkişafı ona gətirib çıxara bilər ki, dünyada yüksək intellektli, lakin şüursuz varlıqlar meydana çıxa bilər. Bu sahə üzrə dünya alimlərinin çox sayda araşdırma əsərləri yazılıb.

Böyük əksəriyyət düşünür ki, süni intellekt heç bir zaman insan zəkasına qalib gələ bilməz. Bu, mümkünsüzdür. Tanrının yaratdığına müdaxilə etmək və onun alternativini yaratmağa cəhd etmək demonların işidir, yəni şeytan əməlidir. Bu mənada texnologiya heç zaman ilahi nizama qalib gələ bilməyəcək. Digər tərəfdən isə digital sistemlər sürətlə inkişaf etməkdədir. İyirmi birinci əsrdə postindustrial sivilizasiya süni intellektə və nanotexnologiyaya əsaslanaraq daha özünəbağlı bir sistem ola bilər. İnsan sivilizasiyası bu yeni mühitə adaptasiya olunduqca dünyanın mənzərəsi də dəyişəcək.

Metamorfozalar iqlim dəyişikliklərinə də öz təsirini göstərməkdədir. İnsanlar yüz min illərdir ki, planetdə yaşayır və bir neçə buzlaşma və istiləşmə dövründən sağ çıxıblar. Elm adamları bu fikirlə razılaşır ki, insan fəaliyyəti, xüsusilə də karbon dioksid kimi istixana effekti yaradan qazların ətraf mühitə yayılması yer kürəsinin iqlimini qorxunc sürətdə dəyişir. Bu da səhraların genişlənməsi, buzlaqların yoxa çıxması, okean səviyyəsinin yüksəlməsi, ekstremal iqlim hadisələrinin daha da intensivləşməsi deməkdir. Herman Melvilin, Meri Şellinin, Jül Vernin əsərlərində bunlar, doğrudan da, insanlara fantastika kimi görünürdü. Zaman keçir, fantastika reallığa çevrilir.

Antiutopik romanın ustaları olan Corc Oruellin "1984", Rey Bredberinin "451 dərəcə Farenheyt" əsərlərindən tanış olduğumuz monitorlar gerçəyə çevrildi, onların səbəbsiz günah hissindən əziyyət çəkən qəhrəmanlarını yataq otağında da izləyən kameralar insanların hərəkət azadlığını xeyli məhdudlaşdırdı. Amma Tanrı yaratdıqlarının şüurlusu olan insana alternativ insan yaratmaq qüdrəti vermədi. Cövhər onun xəzinəsindədir, bu cövhər Ruhdur. Buna görə də insan heç vaxt öz alternativini yarada bilməz. Məsləhət olsaydı, onu Tanrı yaradardı.

İnsanı həyatdan kitaba gətirmək asandır, onun kitabdan çıxıb həyata gəlməsi isə həmişə baş vermir.

***Kənan HACI,***
***yazıçı-publisist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 193 (30597) 6 sentyabr 2024-cü il, cümə

# Paralimpiya komandamız 7-ci medalını qazanıb

**Fransada keçirilən Yay Paralimpiya Oyunlarında Azərbaycan komandasının çıxışı davam edir.**

Dünən yığmamızın 2 üzvü oyunlarda iştirak edib. T13 kateqoriyasında 100 metr məsafəyə qaçışda çempion olan paraatlet Lamiyə Vəliyeva bu dəfə 400 metr məsafəyə qaçış üzrə yarışda 56,51 saniyəlik nəticə ilə təsnifat mərhələsini 2-ci pillədə başa vuraraq finala vəsiqə əldə edib. Bu növ üzrə final mərhələsi sentyabrın 7-də baş tutacaq.

Yığmamızın üzvü Vəli İsrafilov da Parisdə mübarizəyə qoşulub. Paraüzgüçümüz B13 kateqoriyasında 100 metr məsafə üzrə brass üsulunda yarışıb. O, 1:05.82 nəticə ilə finiş xəttinə üçüncü çatıb. Bu göstərici ilə ilk "8-lik"də yer alan V.İsrafilov final mərhələsinə vəsiqə qazanıb. Təmsilçimiz medal uğrunda mübarizədə 1:05:35 nəticə ilə üçüncü pillədə qərarlaşaraq bürünc medal qazanıb

Qeyd edək ki, hazırda Azərbaycanın aktivində 3 qızıl, 1 gümüş və 2 bürünc medal var. "Paris-2024" Yay Paralimpiya Oyunları sentyabrın 8-də başa çatacaq.

***L.QURBANOVA***
***XQ***



# Azərbaycan–İsveç: 1–3



**Azərbaycan yığması UEFA Millətlər Liqasının 2024/2025-ci illər mövsümündə ilk oyununu keçirib.**

Fernandu Santuşun rəhbərlik etdiyi komanda Bakıda İsveçi qəbul edib. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən görüşü Macarıstandan olan hakimlər briqadası idarə edib. Qarşılaşma millimizin 1:3 hesablı məğlubiyyəti ilə yekunlaşıb.

Qeyd edək ki, Azərbaycan millisi sentyabrın 8-də səfərdə Slovakiya seçməsinin qonağı olacaq.

# Cüdoçularımızın 3 Tallin medalı

**Estoniyanın Tallin şəhərində keçirilən gənclər arasında cüdo üzrə Avropa çempionatına komandamız uğurla start verib.**




Oğlanların yarışında Nizami İmranov (60 kq) bütün rəqiblərini məğlub edərək finala yüksəlib. Həlledici mərhələdə ukraynalı rəqibi Nazar Viskova uduzaraq gümüş medalla kifayətlənib.

Qızlar arasında isə təmsilçimiz Könül Əliyeva (48 kq) finala qədər bütün görüşlərini qələbə ilə başa çatdırıb. Baş mükafat uğrunda Türkiyə təmsilçisi Zilan Ertemə də gücünü göstərən istedadlı tatami ustası çempion adına layiq görülüb.

Qadın yığmamızın digər üzvü Fidan Əlizadə də (57 kq) uğurla finala qədər irəliləyib. O, qızıl medal uğrunda gürcüstanlı Nino Loladze ilə mübarizə aparıb. İdmançımız rəqibə qalib gələrək qızıl medal qazanıb.

# "Zirə"yə xəbərdarlıq, 3 kluba cərimə



**"Zirə" – "Qarabağ" oyununun 29-cu dəqiqəsində "Zirə"nin azarkeşləri tərəfindən rəqib komandanın ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə görə "Zirə"yə xəbərdarlıq edilib.**

Bu hal cari mövsümdə ilk dəfə yaşandığına görə AFFA həlləlik xəbərdarlıqla kifayətlənib. Bu barədə İntizam Komitəsinin növbəti iclasında qərar qəbul olunub.

"Sumqayıt" – "Araz Naxçıvan" oyununda "Araz-Naxçıvan"ın 5 futbolçusu sarı vərəqə aldığına görə klub 700 manat cərimə edilib. "Şamaxı" isə 800 manat cərimələnib. Belə ki, "Şamaxı" – "Neftçi" oyunu bitdikdən sonra meydançaya kənar şəxs daxil olub. "Kəpəz" də 800 manat ziyana düşüb. Buna səbəb V turun "Sabah"la matçı bitdikdən sonra meydana kənar şəxsin daxil olmasıdır.

***L.AZAD***
***XQ***

# Sarımsaq da məlhəmdir – cavanlığa həmdəmdir

**Sarımsağın qabığının nə qədər faydalı olduğunu bilsəniz, onu təmizləyəndə zibil kimi atmazsınız. Bu qiymətli "tullantı" gəncliyin ömrünü uzatmağa kömək edir.**



Buna nail olmaq üçün ayın müəyyən günlərində sarımsağın ağ qabıqlarından hazırlanmış dəmləməni içmək lazımdır. Bir şərtlə ki, məhsul yerli istehsal olsun.

İçkini hazırlamaq üçün bir ovuc sarımsaq qabığı götürülür. Çaynik qaynadılır və 1–2 dəqiqə gözləyəndən sonra stəkana tökülmüş qabıqların üstünə əlavə edilir. Ağzı bağlı qabda 8 saat saxlayıb sonra süzmək və 10 gün ərzində gündə yarım stəkan qəbul etmək lazımdır.

Dəmləməni yalnız stəkandakı su soyuduqdan sonra içmək olar. Hazırlanmış "çayı" heç vaxt ılıq, yaxud isti halda içmək olmaz.

Gün ərzində 4 stəkan qəbulu tövsiyə edilir. Məlhəmin soyuması uzun çəkdiyinə görə, onu öncədən hazırlamaq lazımdır.

Sarımsaq "çayı"nı içməyin də öz vaxtı var. Mütəxəssislərin fikrincə, kişilər bu içkini hər hansı ayın 10–20-si arası, qadınlar isə 20-dən 30-u tarixinə qədər içə bilərlər.

İçki dərini cavanlaşdırır, rəngini parlaq edir və qocalmanı ləngidir. Həmçinin orqanizmdən toksin, duz, ağır metal, radioaktiv birləşmələri, sərbəst radikalları çıxarıb zərərsizləşdirir. Qabıqda olan pektin damarları təmizləyir.

***Z.HÜSEYNLİ***
***XQ***

# "Poeziya şəhərləri"

**İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı ICESCO bu il "İslam dünyasında mədəniyyət paytaxtları" proqramının bir hissəsi olan 3 şəhəri - Azərbaycan Respublikasında Şuşa, Mərakeş Krallığında Marrakeş və Liviya Dövlətində Benqazini əhatə edən "Poeziya şəhərləri" illik mükafatı üçün müsabiqənin başlandığını elan edib.**




Müsabiqə bir çox şairləri ölməz poeziya toplusu yaratmağa ruhlandıran qədim şeir ənənələri ilə müasir poeziya arasında əlaqəni canlandırmaq və gücləndirmək məqsədi daşıyır. O, həmçinin şəhərlərin tarixini və coğrafiyasını poetik və estetik cəhətdən sənədləşdirmək, şeir vasitəsilə İslam dünyasının mədəniyyət paytaxtlarını tərənnüm edən simvolları və sivilizasiyaları daha geniş miqyasda tanıtdırmaq, İslam dünyasındakı poetik korpusu zənginləşdirmək və ədəbiyyata töhfə vermək məqsədi daşıyır.

Müsabiqədə iştirak edən şeirlər İslam dünyasında mədəniyyət paytaxtı kimi qeyd olunan hər bir şəhərdən üç qalibi seçmək üçün ICESCO-nun ixtisaslaşmış komitəsi və görkəmli şairlər tərəfindən qiymətləndiriləcək.

***XQ***

# "Ağıllı pəncərələr" yağış damcılarını enerjiyə çevirir

**Seul Universitetinin (Cənubi Koreya) bir qrup tədqiqatçısı yağış damcılarının kinetik enerjisini elektrikə çevirən "ağıllı pəncərə" hazırlayıb. Tədqiqata rəhbərlik edən professor Seung Hwan Ko bu texnologiyanın enerji səmərəliliyi və ətraf mühitin qorunması baxımından böyük potensiala malik olduğunu bildirib.**




"Ağıllı pəncərə"lər "zero energy" və "plus energy" olmaqla, iki əsas prinsipə əsaslanıb. "Zero energy" pəncərəyə enerji sərf etmədən bəzi funksiyaları yerinə yetirməyə imkan verdiyi halda, "plus energy" pəncərəyə elektrik enerjisi istehsal etməyə şərait yaradır.

Laboratoriya sınaqları nəticəsində həmçinin məlum olub ki, ağıllı pəncərə standart pəncərələrlə müqayisədə daxili temperaturu 7 dərəcəyə qədər azalda bilir. Yağış zamanı onların hər kvadratmetrinin 8.3 vatt enerji istehsal etmək imkanı var.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Bəzi bölgələrdə yağış yağacaq

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi günün ikinci yarısında mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq.**



Havanın temperaturu gecə 19-23° isti, gündüz 26-29° isti olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 17-22°, gündüz 25-30°, dağlarda gecə 10-15°, gündüz 18-22° isti olacaq.

***XQ***

# Azərbaycanda zəlzələ olub



**Biləsuvar rayonunda 4.5 maqnitudalı zəlzələ qeydə alınıb. Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Zəlzələlərin Tədqiqatı Bürosu məlumat yayıb.**

Yeraltı təkanlar saat 10:45-də baş verib, lakin hiss edilməyib.

***XQ***


## "Bakavtoservis" ASC səhmdarlarının nəzərinə!

25 oktyabr 2024-cü il saat 12.00-da səhmdarların növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. İcra orqanının rəhbərinin seçilməsi.
2. Cəmiyyətin direktorlar (müşahidə) şurasının üzvünün seçilməsi.

Əlaqə telefonu – (012) 478 76 07.

Ünvan – Bakı, Suraxanı rayonu, Zığ qəsəbəsi, Zığ-Suraxanı yolu, 2-ci km 10.

***"Bakavtoservis" ASC-nin direktoru***


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3822
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00